# Nokia 3610 fold istifadəçi təlimatı




9210274
Buraxılış 2 AZ

C€0434

UYĞUNLUQ BƏYANNAMƏSİ

Bununla, NOKİA KORPORASIYASI bildirir ki, bu RM-429 məhsulu 1999/5/EC Direktivinin əsas tələblərinə və müvafiq göstərişlərinə cavab verir. Uyğunluq Bəyannaməsinin surətini http://www.nokia.com/phones/declaration_of_conformity/ İnternet saytında əldə etmək olar.

©2008 Nokia. Bütün hüquqlar qorunur.

Nokia, Nokia Connecting People, Navi və Nokia Orijinal Aksessuarları loqotipi NOKIA Korporasiyasının qeydiyyata alınmış əmtəə nişanlarıdırlar. Nokia tune Nokia Korporasiyasının səs nişanıdır. Bu sənəddə qeyd edilən digər məhsulların və ya şirkətlərin adları onların müvafiq sahiblərinin əmtəə adları və ya əmtəə nişanları ola bilər.

Bu sənəddə göstərilən məlumatın Nokia şirkətinin əvvəlcədən alınmış yazılı razılığı olmadan hər hansı şəkildə müəyyən bir qismi və ya tam təkrar ifadəedilməsi, köçürülməsi, yayılması və ya saxlanılması qadağan edilir.

US Patent No 5818437 and other pending patents. T9 text input software Copyright (C) 1997-2008. Tegic Communications, Inc. All rights reserved.

Includes RSA BSAFE cryptographic or security protocol software from RSA Security.

Java is a trademark of Sun Microsystems, Inc.

This product is licensed under the MPEG-4 Visual Patent Portfolio License (i) for personal and noncommercial use in connection with information which has been encoded in compliance with the MPEG-4 Visual Standard by a consumer engaged in a personal and noncommercial activity and (ii) for use in connection with MPEG-4 video provided by a licensed video provider. No license is granted or shall be implied for any other use. Additional information including that related to promotional, internal, and commercial uses, may be obtained from MPEG LA, LLC. See http://www.mpegla.com.

Bu məhsul MPEG-4 Nəzəri Standartlarına müvafiq şəkildə kodlaşdırılmış informasiya ilə əlaqədar olaraq şəxsi və qeyri-kommersiya fəaliyyəti ilə məşğul olan istifadəçinin şəxsi və qeyri-kommersiya istifadəsi üçün və lisenziyalaşdırılmış televiziya təminatçısı tərəfindən hazırlanmış MPEG-4 televiziya ilə əlaqədar olaraq istifadəsi üçün Nəzəri Aşkar Sənəd Lisenziyası əsasında təsdiq edilmişdir. Başqa məqsədlə istifadə olunması üçün heç bir əlavə lisenziya verilmir və ya nəzərdə tutulmayacaqdır. Köməkçi, daxili və kommersiya istifadəsi ilə əlaqədar olan əlavə məlumat MPEG LA, LLC-dən əldə edilə bilər. http://www.mpegla.com saytına baxın.

Nokia sabit inkişaf siyasətini tətbiq edir. Nokia bu sənəddə göstərilən istənilən məhsula əvvəlcədən xəbərdarlıq etmədən dəyişiklik etmək və ya təkmilləşdirmək hüququna malikdir.

MÜVAFİQ QANUNVERİCİLİKDƏ İCAZƏ VERİLƏN MAKSİMUM DƏRƏCƏDƏ NOKIA, YA DA ONUN HƏR-HANSI BİR LİSENZİYALAŞDIRANI HƏR-HANSI MƏLUMATIN, GƏLİRİN İTMƏSİ VƏ YA HƏR-HANSI XÜSUSİ, TƏSADÜFİ, ƏHƏMİYYƏTLİ, VƏ YA DOLAYI YOLLA VURULAN ZİYANLARA GÖRƏ HEÇ BİR MƏSULİYYƏT DAŞIMIR.

BU SƏNƏDIN MƏTNI “OLDUĞU KIMI“ TƏQDIM EDILIR. MÜVAFIQ GANUNVERICILIYIN TƏLƏBLƏRI ISTISNA OLMAQLA, BU SƏNƏDIN DƏQIQLIYI, ETIBARLILIĞI VƏ YA MƏTNINƏ DAIR HEÇ BIR BIRBAŞA VƏ YA ƏLAQƏLƏNDIRILMIŞ ZƏMANƏT, O CÜMLƏDƏN (LAKIN BUNUNLA MƏHDUDLAŞDIRILMADAN) ƏMTƏƏ VƏZIYYƏTI VƏ XÜSUSI MƏQSƏDLƏR ÜÇÜN YARARLIĞINA DAIR ƏLAQƏLƏNDIRILMIŞ ZƏMANƏT VERILMIR. NOKIA ISTƏNILƏN VAXT BU SƏNƏDIN ƏVVƏLCƏDƏN XƏBƏRDARLIQ ETMƏDƏN DƏYIŞDIRILMƏSI VƏ YA ISTIFADƏDƏN ÇIXARILMASI HÜQUQUNA MALIKDIR.

Xüsusi məhsulların, qoşma proqramların və xidmətlərin mövcudluğu regiondan asılı olaraq fərqlənə bilər. Xahiş olunur ki, əlavə məlumat üçün və dil seçiminin mövcudluğu ilə bağlı NOKIA dilerinə müraciət edəsiniz.

**İxracata nəzarət**

Bu cihazda ABŞ və digər ölkələrin ixracat qanun və qaydalarına tabe olan əşya, hər-hansı bir texnologiya, və ya proqram ola bilər. Qanunvericiliyə zidd olan yayınmalar qadağan edilir.

Sizin cihazınızla birgə verilən üçüncü tərəfin əlavələri ola bilsin ki, Nokia ilə heç bir əlaqəsi, və ya ona aidiyyəti olmayan şəxslər, ya da müəssisələr tərifindən istehsal olunublar. Nokia üçüncü şəxslərin qoşma proqramları ilə bağlı müəlliflik hüquqlarına və ya əqli mülkiyyət hüquqlarına malik deyil. Bununla bağlı olaraq Nokia bu proqramların son istehlakçı dəstəyi əlavələrin işləməsi və ya onların daşıdığı məlumat ilə bağlı heç bir məsuliyyət daşımır.
Bu üçüncü-tərəf proqramlarla bağlı Nokia zəmanət vermir.

SİZ QƏBUL EDİRSİNİZ Kİ, PROQRAM VƏ/VƏ YA QOŞMA PROQRAMLAR (BİRLİKDƏ PROQRAMLAR) OLDUĞU KIMI BİRBAŞA VƏ YA İCBARI ZƏMANƏTSİZ VƏ TƏTBİQ EDİLƏN QANUNVERİCİLİYİN YOL VERDİYİ MAKSİMUM DƏRƏCƏDƏ TƏMİN EDİLİR. NOKİA ŞİRKƏTİ VƏ ONUN FİLİALLARI HEÇ BİR TƏSDİQ VƏ YA BİRBAŞA YAXUD İCBARİ ZƏMANƏT VERMİR, O CÜMLƏDƏN PROQRAMIN ADI, SATIŞ VƏ YA MÜƏYYƏN MƏQSƏD ÜÇÜN YARARLIĞINA VƏ YA PROQRAMIN ÜÇÜNCÜ ŞƏXSLƏRİN PATENT, MÜƏLLİFLİK, ƏMTƏƏ NİŞANLARI İLƏ BAĞLI VƏ DİGƏR HÜQUQLARININ POZULMAYACAĞINA DAİR ZƏMANƏT VERMİR.

FCC BİLDİRİŞİ

Sizin cihaz televizor, və ya radio üçün əngəl törədə bilər (məsələn, telefondan qəbuledici avadanlığa yaxın məsafədə olarkən istifadə zamanı). FCC belə əngəllərin aradan qaldırılması mümkün olmadıqda, sizdən telefondan istifadəni dayandırmağı tələb edə bilər. Sizə yardım lazım olduqda, öz yerli xidmət idarənizlə əlaqə saxlayın. Bu cihaz FƏN qaydalarının 15 bəndinə uyğundur. Əməliyyat aşağıdakı iki vəziyyətə cavab verir: (1) Bu cihaz ziyanlı əngəl yaratmaya bilər, və (2) bu cihaz arzu olunmaz əməliyyat yarada biləcək əngəl də daxil olmaqla, hər-hansı bir alınmış əngəli qəbul etməlidir. Nokia tərəfindən ifadəli şəkildə təsdiq edilməyən hər hansı dəyişiklik istifadəçinin bu cihazdan istifadə etmə hüququnu ləğv edə bilər.

9210274 Buraxılış 2

# Məzmun


**TƏHLÜKƏSİZLİK........................... 6**

**Ümumi məlumat............................ 7**
Faydalı məsləhətlər ..................................7
Sizin cihaz haqqında ...............................8
Şəbəkə xidmətləri....................................9
Bölüşdürülən yaddaş ...............................9
Aksessuarlar............................................9
Giriş kodları ..........................................10
Konfiqurasiya parametrlərinin xidməti ....10
Proqram təminatının yeniləşdirilməsi...... 11
Məzmun yüklə ....................................... 11
Nokia dəstəyi......................................... 11
Rəqəmli (müəllif) hüquqların idarəsi .......12

**1. Cihazın işə salınması .............. 12**
SIM kart və batareyanı daxil edin ..........12
Batareyanın doldurulması.......................13
Telefonu yandırın və söndürün ...............13
Vaxtı, qurşağı və tarixi təyin edin ...........13
Antena ...................................................13
Telefonunuzu və kompyuteri
bir-birinə qoşun.......................................14
Düymələr və hissələr..............................14
microSD kartı..........................................15
Gözləmə rejimi........................................16
Uçuş rejimi..............................................18

**2. Zənglər..................................... 18**
Zəng etmək.............................................18
Zəng gözləməsi ......................................19
Zəng zamanı seçimlər ............................20

**3. Mətn yaz ................................... 20**
Sadələşdirilmiş mətn yığılması ...............20
Adi mətn yığılması ..................................21

**4. Mesaj xidmətləri....................... 21**
Sadələşdirilmiş mətn yığılması ...............21
Mesajın oxunuşu və cavablanması ........22
Multimedia mesajları...............................22
Fleş mesajlar ..........................................23
Nokia Xpress audio mesajlaşma ............23
Yaddaş doludur.......................................23
Elektron poçt qutusu...............................23
Cəld mesajlaşma ....................................24
Səsli mesajlar .........................................25
Mesaj parametrləri..................................25

**5. Kontaktlar................................. 27**
Kontaktın axtarışı....................................27
Adları və telefon nömrələrini saxla .........27
Təfsilatları saxla......................................27
Kontaktların surətininin çıxarılması
və ya köçürülməsi...................................28
Kontakt təfsilatlarını redaktə et ...............28
Tam sinxronlaşdırma ..............................28
Kontaktları silmək ..................................28
Vizitkalar .................................................28
Parametrlər.............................................29
Qruplar....................................................29
Sürətli yığım............................................29

**6. Jurnal....................................... 29**

**7. Parametlər................................ 30**
Profillər ...................................................30
Mövzular .................................................30
Tonlar......................................................30
Əsas ekran .............................................30
Miniekran ...............................................31
Tarix və vaxt...........................................31
Qısa yollarım ..........................................31
Qoşulma qabiliyyəti ................................32
Zəng .......................................................35
Telefon ...................................................36
Aksessuarlar...........................................36
Konfiqurasiya..........................................37
Təhlükəsizlik ...........................................37
İstehsalçı parametrlərinin bərpası ..........38

**8. Operator menyusu .................. 38**

**9. Qalereya .................................. 38**
Şəkillərin çapı ........................................39

**10. Media .................................... 39**
Kamera ..................................................39
Video ......................................................40
Musiqi pleyeri..........................................40
Diktofon .................................................41
Ekvalayzer .............................................42
Stereo genişlənmə..................................42

**11. Orqanayzer ........................... 42**
Zəngli saat ........................................... 42
Təqvim ................................................. 42
İşlər siyahısı ........................................ 43
Qeydlər ................................................ 43
Kalkulyator ........................................... 43
Əks istiqamət taymeri ........................... 43
Saniyəölçən .......................................... 44

**12. Əlavələr................................. 44**
Oyunu yaxud proqramı açmaq .............. 44
Bəzi proqram seçimləri ......................... 44
Proqramı yükləmək................................ 45

**13. SIM xidmətləri ....................... 45**

**14. İnternet .................................. 45**
Xidmətə qoşulmaq ................................. 45
Əlfəcinlər .............................................. 46
Görünüş parametrləri............................. 46
Təhlükəsizlik parametrləri...................... 46
Gələn xidmət məktubların qutusu .......... 47
Brauzer təhlükəsizliyi ............................ 47

**15. Kompyuterə qoşulma qabiliyyəti ...................................... 49**
Nokia PC Suite ..................................... 49
Paket məlumatı, HSCSD və CSD.......... 49
Bluetooth .............................................. 49
Məlumat ötürülməsi proqramları ............ 50

**16. Batareya və adapter barədə məlumat ........................... 50**
Nokia batareyasının identifikasiyası qaydaları ............................................. 51

**Baxım və texniki xidmət............. 52**

**Təhlükəsizliklə bağlı əlavə məlumat....................................... 53**

# TƏHLÜKƏSİZLİK

Bu sadə göstərişləri oxuyun. Bu göstərişlərə əməl olunmaması təhlükəli və ya qeyri-qanuni ola bilər. Daha ətraflı məlumat üçün istifadəçinin təlimatının tam mətnini oxuyun.



**TƏHLÜKƏSİZLİKLƏ İŞƏ SALINMASI**
Simsiz telefonların istifadəsi qadağan edilidiyi yerlərdə və ya bunun nəticəsində maneə və ya təhlükə törədilə bilərsə, telefonu işə salmayın.



**İLK NÖVBƏDƏ YOL TƏHLÜKƏSİZLİYİ QAYDALARI RİAYƏT OLUNMALIDIR**
Bütün yerli qanunlara riayət edin. Avtomobili idarə edərkən əllərinizi idarə üçün boş saxlayın. Avtomobili idarə edərkən siz ilk növbədə yol təhlükəsizliyi qaydalarını düşünməlisiniz.



**MANEƏ**
Bütün simsiz telefonlar maneələrə həssas ola bilər və bu onların iş keyfiyyətlərinə təsir göstərə bilər.



**MƏHDUDLAŞDIRILMIŞ ƏRAZİLƏRDƏ SÖNDÜRÜN**
Bütün məhdudiyyətlərə riayət edin. Cihazı təyyarədə, tibbi cihazların, yanacağın və ya partlayıcıların yanında söndürün.



**KEYFİYYƏTLİ XİDMƏT**
Yalnız müvafiq ixtisasa malik olan işçilər bu məhsulu quraşdıra və ya təmir edə bilər.



**TƏKMİLLƏŞDİRMƏLƏR VƏ BATAREYALAR**
Yalnız təsdiq edilmiş aksesuar və batareyaları istifadə edin. Uyğun olmayan məhsulları qoşmayın.



**SUYA DAVAMLILIQ**
Sizin telefon suya davamlı deyil. Onu quru vəziyyətdə saxlayın.

# Ümumi məlumat

## Faydalı məsləhətlər

**Telefonunuzu xidmət mərkəzinə aparmaqdan əvvəl**

**S:** Mən telefonumda yaranan əməliyyat məsələlərinin necə həll edə bilərəm?

**C:** Aşağıda göstəriləni sınayın:

- Telefonu söndürüb batareyanı çıxardın və sonra onu yenidən daxil edin.
- İstehsalçı parametrlərini bərpa edin. Seçin **Menyu** > *Parametrlər* > *İstehsalçı parametrlərini bərpa et.* Kontaktlar-da saxlanılan adlar və telefon nömrələri silinmir.
- Telefonu Nokia Software Updater ilə təkmilləşdirin, əgər bu proqram təminatı mövcuddur. www.nokia.com/softwareupdate və yaxud yerli Nokia İnternet saytına baxın.

**Bluetooth əlaqəsi**

**S:** Niyə görə telefon Bluetooth cihazını tapa bilmir?

**C:** Aşağıdakıları yoxlayın:

- Bluetooth əlaqəsinin hər iki cihazda aktiv və cihazların uyğun olduqunu.
- İki cihazın arasında məsafənin 10 metrdən (33 futdan) artıq olmadıqını. Cihazların arasında divar yaxud digər maneələrin olmadıqını.
- Digər cihazın gizli rejimdə olmadığını.

**Zənglər**

**S:** Zəng tonunu necə dəyişdirə bilərəm?

**C:** Seçin **Menyu** > *Parametrlər* > *Melodiyalar*.

**Kontaktlar**

**S:** Yeni kontaktı necə əlavə edə bilərəm?

**C:** Birinci kontakt üçün seçin **Menyu** > *Kontaktlar* > *Adlar* > *Əlavə et*.

**S:** Kontakta əlavə məlumatı necə əlavə edə bilərəm?

**C:** İstədiyiniz kontaktı axtarın, sonra isə seçin **Detallar** > **Seçiml.** > *Detal əlavə et*.

**Menyular**

**S:** Menyuların görünüşünü necə dəyişdirə bilərəm?

**C:** Menyunun görünüşünü dəyişdirmək üçün seçin **Menyu** > **Seçiml.** > *Əsas mnyu görnş*.

**S:** Menyuya istədiyim üslubu necə verə bilərəm?

**C:** Menyunu yenidən təşkil etmək üçün seçin **Menyu** > **Seçiml.** > *Təşkil et*. Arzu olunan menyu elementinə doğru keçin və **Köçür** seçin. İstədiyiniz nöqtəyə doğru diyirləyin və seçin **OK**.

**Mesaj xidmətləri**

**S:** Elektron poçtu necə təsis edə bilərəm?

**C:** Sizin telefonda elektron poçt funksiyalarından istifadə etmək üçün sizə müvafiq elektron poçt sistemi tələb olunur. Elektron poçtunuzun konfiqurasiyası sizin elektron poçt təminatçınız ilə yoxlayın.

Elektron poçtun parametrlərini aktivləşdirmək üçün göstərilənləri seçin **Menyu** > *Mesajlar* > *Mesaj parametrləri* > *E-poçt mesajları*.

**Kompyuterə qoşulma qabiliyyəti**

**S:** Niyə görə telefonu mənim kompyuterimə qoşduqda problemlər yaranır?

**C:** Nokia PC Suite sizin kompyuterinizdə quraşdırıldıqını və əməliyyat göstərdiyini təmin etməlisiz. Nokia PC Suite istifadəçi təlimatı yaxud Nokia PC Suite kömək bölümünə baxın. Həmçinin www.nokia.com saytında köməkçi səhifələrinə baxın.

**Sürətli düymələr**

**S:** Telefonumda sürətli düymələr mövcuddurmu?

**C:** Sizin telefonunuzda bir neçə sürətli düymələr mövcuddur.

- Son yığılmış yaxud daxil olan nömrələr siyahısına çıxmaq üçün zəng düyməsini bir dəfə basın. İstədiyiniz nömrənin və ya adın üzərinə keçin, zəng düyməsini basın.
- İnternet brauzeri açmaq üçün **0** sıxın.
- Səsli poçt qutusuna zəng etmək üçün **1** sıxın.
- Keçid düyməsini sürətli düymə kimi istifadə edin. Bax “Qısa yollarım”, səh. 31.
- Sakit profilə yaxud geriyə Normal profilə qayıtmaq üçün **#** basıb saxlayın.

## ■ Sizin cihaz haqqında

Bu təlimatda təsvir edilmiş simsiz cihaz EGSM 850 və 900 və GSM 1800 və 1900 şəbəkələrində istifadə üçün təsdiq edilmişdir. Şəbəkə haqqında daha ətraflı məlumat əldə etmək üçün xidmət provayderinizlə əlaqə saxlayın.

Bu cihazdakı funksiyalardan istifadə edərkən bütün qanunlara riayət edin və müəllif hüquqları da daxil olmaqla, yerli adətlərə, digər şəxslərin şəxsi işlərinə və qanuni hüquqlarına hörmət edin.

Müəlliflik hüquqlarının mühafizəsi müəyyən şəkillərin, zəng signalları melodiyalarının və digər məzmunlu funksiyaların surətinin çıxarılmasına, dəyişdirilməsinə və ya köçürülməsinə mane ola bilər.

Cihazınızda üçüncü tərəf internet saytları üçün əvvəlcədən qurulan əlfəcinlər və bəndlər ola bilər. Həmçinin cihazınız vasitəsilə üçüncü tərəf saytlara daxil ola bilərsiniz. Üçüncü tərəf saytlar Nokia-nın himayəsində deyil və Nokia onlara görə məsuliyyət daşımır. Əgər belə saytlara daxil olmaq istəsəniz təhlükəsizlik və ya tərkib üçün ehtiyat tədbirlərini həyata keçirməlisiniz.

Telefonun yaddaşında saxladığınız bütün zəruri məlumatın rezerv surətlərini çıxarmağı və ya yazılı qeyd etməyi unutmayın.

Digər cihaza qoşularkən təhlükəsizliklə bağlı ətraflı məlumatı əldə etmək üçün onun istifadə təlimatını oxuyun. Uyğun olmayan məhsulları qoşmayın.

**Xəbərdarlıq:** Zəngli saat istisna olmaqla bu cihazın bütün imkanlarının istifadəsi üçün telefon işə salınmalıdır. Simsiz cihaz maneə və ya təhlükə törədə biləcəyi yerlərdə telefonu işə salmayın.

## Şəbəkə xidmətləri

Telefonun istifadəsi üçün sizin simsiz xidmət provayderinə ehtiyacınız var. Xüsusiyyətlərin çoxu xüsusi şəbəkə xüsusiyyətləri tələb edir. Bu xüsusiyyətlər bütün şəbəkələrdə mövcud deyil; şəbəkə xidmətlərindən istifadə etməkdən öncə digər şəbəkələr Sizdən xidmət təminatçınızla xüsusi razılıq əldə etməyinizi tələb edə bilər. Xidmət təminatçınız Sizə təlimatlar verə bilər və onun tərəfindən hansı haqların tətbiq olunmasını izah edə bilər. Müəyyən şəbəkələrdə Sizin şəbəkə xidmətindən istifadənizə təsir edə biləcək məhdudiyyətlər mövcud ola bilər. Misal üçün, dildən asılı olmayan simvollar və xidmətlər müəyyən şəbəkələr tərəfindən təmin edilməyə bilər.

Xidmət təminatçınız telefonunuzdakı bəzi funksiyaların aktivləşdirilməməsini və ya söndürülməsini tələb edə bilər. Belə olan halda həmin funksiyalar telefonunuzun menyusunda görünməyəcək. Telefonunuz menyu adlarında, menyu sırasında və nişanlarda dəyişikliklər kimi xüsusi konfiqurasiyaya malik ola bilər. Daha ətraflı məlumat üçün xidmət provayderinizlə əlaqə saxlayın.

Bu cihaz TCP/IP protokollarına daxil olan WAP 2.0 protokollarını (HTTP və SSL) dəstəkləyir. Bu cihazın müəyyən xüsusiyyətləri, məsələn, multimediya mesaj (MMS), İnternet brauzinq, elektron poçt istifadəsi, cəld mesajlaşma, mövcudluq ilə gücləndirilimiş kontaktlar, uzaq sinxronizasiya və məzmunun brauzer yaxud MMS ilə yüklənməsi kimi xüsusiyyətlər bu texnoloqiyalar üçün şəbəkə köməyini tələb edir.

## Bölüşdürülən yaddaş

Bu cihazın aşağıda göstərilən elementləri yaddaşı birgə istifadə edə bilər: Qalereya, kontaktlar, mətn mesajları, multimedia mesajları və cəld mesajlar, elektron poçt, təqvim, işlər üzrə qeydlər, Java™ oyun və proqramları və qeyd proqramı. Bu elementlərin birinin və ya daha çoxunun istifadəsi yaddaşda birgə istifadə edən digər elementlər üçün yaddaş həcmini azalda bilər. Məsələn, çoxlu Java proqramlarının saxlanılması bütün mövcud olan yaddaşdan istifadə edə bilər. Birgə istifadə edilən yaddaş elementi istifadə etməyə cəhd etdikdə sizin cihazın ekranında yaddaşın dolu olmasına dair yazı göstərilə bilər. Bu halda davam etmədən əvvəl birgə yaddaş istifadə edən elementlərdə saxlanılan müəyyən məlumatı və ya komponentləri silin.

## Aksessuarlar

**Xəbərdarlıq:** Yalnız Nokia tərəfindən təsdiq edilmiş batareyaları istifadə edin və batareyanızın doldurulması üçün yalnız Nokia tərəfindən təsdiq edilmiş bu telefon üçün nəzərdə tutulmuş batareyaları, batareya dolduran qurğuları və aksesuarları istifadə edin. Digər növün istifadəsi cihaza tətbiq edilən hər hansı təsdiq və zəmanətin də qüvvədən düşməsinə səbəb və təhlükəli ola bilər.

Təsdiq edilmiş aksessuarların mövcudluğu, qiymətlər və tariflər haqqında məlumat almaq üçün xidmət təminatçınızla əlaqə saxlayın. Hər hansı aksesuarın güc şnurunu ayırarkən, şnurdan deyil ştepseldən tutub çəkin.

# Giriş kodları

Telefonunuzun giriş kodlarından necə istifadə etdiyini qurmaq üçün seçin **Menyu** > *Parametrlər* > *Təhlükəsizlik*.




- Klaviatura kilidi düymələrin təsadüfi basılmasının qarşını alır:
  1. Qapaq açıq olduqu vəziyyətdə klaviaturanı bağlamaq üçün 3,5 saniyə ərzində **Menyu** > ***** seçin.
  2. Qapaq açıq olduqu vəziyyətdə klaviaturanı açmaq üçün 1,5 saniyə ərzində **Menyu** > ***** seçin.

  Klaviatura kilidli olduqda zəngə cavab vermək üçün zəng düyməsini basın. Siz zəngi bitirəndə və ya ondan imtina edəndə, klaviatura avtomatik olaraq kilidlənir.

  Siz həmçinin bundan yararlana bilərsiz **Menyu** > *Parametrlər* > *Telefon* > *Avtomatik klaviatur kilidi* və ya *Təhlükəsizlik klaviatur kilidi* > *On (Aktiv et)* yaxud *Off (Söndür)*. Əgər təhlükəsizlik klaviatura kilidi işlək vəziyyətdədirsə, tələb olunan zaman təhlükəsizlik kodunu daxil edin.
- Təhlükəsizlik kodu (5-10 rəqəm) sizin telefonunuzu icazəsiz istifadədən mühafizə etməkdə kömək edir. Siz kodu yarada yaxud dəyişdirə və bu parametri aktivləşdirə yaxud ləğv edə bilərsiniz. Əgər siz kodu yaddan çıxartsanız və telefon blokirovkada olsa, telefona göstəriləcək xidmət tələb olunacaq və əlavə xərclər tətbiq oluna bilər. Daha ətraflı məlumat üçün Nokia Care nöqtəsinə yaxud telefonunuzun dilərinə müraciət edin.
- Sizin SIM kartınızla təchiz edilmiş PIN kod kartın icazəsiz istifadəsinin qarşısını almaqda kömək edir.
- Bəzi SIM kartlarla birlikdə verilən PIN2 kodu müəyyən xidmətlərə daxil olmaq üçün tələb olunur.
- PUK və PUK2 kodları SIM kart ilə birlikdə verilə bilər. Əgər siz PIN və ya PIN2 kodunu 3 dəfə səhv daxil etsəniz, sizdən PUK və ya PUK2 kodu tələb olunur. Əgər sizdə bu kodlar yoxdursa, xidmət təminatçınıza müraciət edin.
- Qadağa parolu (4 rəqəmdən ibarətdir) telefonunuza daxil olan və telefonunuzdan edilən zənglərə məhdudiyyət qoymaq üçün tələb olunur.
- Təhlükəsizlik modulu parametrlərinə (əgər quraşdırılıbsa) baxmaq və ya onları dəyişdirmək üçün, seçin **Menyu** > *Parametrlər* > *Təhlükəsizlik* > *Təhlükəsizlik modulu parametrləri*.

# Konfiqurasiya parametrlərinin xidməti

Mobil İnternet xidmətləri, MMS, Nokia Xpress audio mesajlaşma və ya uzaq İnternet server sinxronizasiyası kimi bəzi şəbəkə xidmətlərindən istifadə etmək üçün telefonunuza düzgün konfiqurasiya parametrləri təyin olunmalıdır. Mövcudluq barədə məlumat üçün şəbəkə operatorunuza, xidmət təminatçısına, yaxınlıqda yerləşən səlahiyyətli Nokia dilerinə müraciət edin və ya www.nokia.com/support saytında köməkçi səhifələrinə baxın.

Konfiqurasiya mesajı şəklində parametrləri qəbul etdikdə və parametrlər avtomatik olaraq yaddaşda saxlanılmadıqı və fəallaşdırılmadıqı halda, *Konfiq. parametr. qəbul edildi* ekranda əks olunur. Parametrləri saxlamaq üçün seçin **Göstər** > **Saxla**. Əgər lazım gələrsə, xidmət təminatçısı tərəfindən verilən PIN kodu daxil edin.

Parametrləri saxlamaq üçün seçin **Göstər** > **Saxla**. Əgər lazım gələrsə, xidmət təminatçısı tərəfindən verilən PIN kodu daxil edin.

Qəbul olunmuş parametrlərindən imtina etmək üçün seçin **Çıx** yaxud **Göstər** > **Rədd et**.

## ■ Proqram təminatının yeniləşdirilməsi

Nokia yeni funksiyalar, geniş imkanlar və ya üstün fəaliyyət təmin edən proqram yeniliklərini hazırlaya bilər. Siz Nokia Software Updater PC proqramı vasitəsilə bu yenilikləri tələb edə bilərsiniz. Cihazın proqramını yeniləmək üçün Nokia Software Updater proqramı və Microsoft Windows 2000 və ya XP əməliyyat sistemi yüklənmiş kompyuter, internet və cihazınızı kompyuterə qoşmaq üçün uyğun kabel lazımdır.

Daha ətraflı məlumat və Nokia Software Updater proqramını yükləmək üçün www.nokia.com/softwareupdate saytına və ya yerli Nokia İnternet saytına baxın.

Proqram təminatının yeniləşdirilməsinin yüklənilməsi zamanı xidmət təminatçınızın şəbəkəsi vasitəsilə iri ölçülü məlumat ötürülə bilər. Məlumatın göndərilmə hesabı ilə bağlı məlumat almaq üçün xidmət təminatçınızla əlaqə saxlayın.

Sizin xidmət təminatçınız telefon üzrə proqram təminatının yeniliklərini hava vasitəsilə birbaşa telefonunuza göndərə bilər. Bu seçim telefonunuzdan asılı olaraq mövcuddur.

Batareyanın kifayət qədər dolu olduğuna əmin olun və ya yeniləməyə başlamazdan əvvəl adapteri qoşun.

**Xəbərdarlıq:** Əgər Siz yeniləşdirmə proqramını yükləsəniz, yükləmə prosesi bitənə qədər və cihaz yenidən işə düşənə qədər cihazdan istifadə edə bilməyəcəksiniz və hətta təcili yardım zənglərini də etmək mümkün olmayacaq. Yeniləşdirmə proqramının yüklənməsini qəbul etməzdən qabaq məlumatın yükləndiyindən əmin olun.

## ■ Məzmun yüklə

Telefona yeni məzmun (məsələn, mövzular) yükləyə bilərsiniz (şəbəkə xidməti). Müxtəlif xidmətlərin mövcudluqu barədə və qiymətlər haqqında məlumat üçün xidmət təminatçınıza müraciət edin.

**Zəruri məlumat:** Yalnız etibar etdiyiniz və zərərli proqramlara qarşı müvafiq təminat təklif edən xidmətləri istifadə edin.

## ■ Nokia dəstəyi

Bu təlimatın son versiyası, əlavə malumat, yüklənilən programlar və sizin əldə etdiyiniz Nokia məhsulu ilə bağlı xidmətlərlə bağlı www.nokia.com/support və ya sizin yerli Nokia İnternet saytını yoxlayın.

İnternet saytında Nokia məhsullarının istifadəsi və xidmətlərə dair məlumat əldə edə bilərsiniz. Əgər müştəri xidməti ilə əlaqə yaratmaq istəyirsinizsə, www.nokia.com/customerservice saytında yerli Nokia Care əlaqə mərkəzlərinin siyahısına baxın.

Texniki xidmət üçün www.nokia.com/repair saytında ən yaxın Nokia xidmət mərkəzinə baxın.

## Rəqəmli (müəllif) hüquqların idarəsi

Sahiblərin geniş hissəsi müəllif hüquqları da daxil olmaqla, öz intellektual mülkünü qorumaq məqsədi ilə Rəqəmli hüquqlar idarəsinin (RHİ) müxtəlif texnologiya növlərindən istifadə edə bilər. Bu cihaz RHİ tərəfindən qorunan tərkibə daxil olmaq üçün RHİ proqramlarının müxtəlif növlərindən istifadə edir. Siz bu cihazın vasitəsi ilə WMDRM 10 ilə qorunan məzmuna giriş əldə edə bilərsiniz. Əgər hansısa RHİ proqramı məzmunu qoruya bilmirsə, onda məzmun sahibləri bu kimi RHİ proqramın yeni RHİ tərəfindən qorunan məzmuna daxil olmasının ləğv olunmasını tələb edə bilərlər. Bu kimi RHİ proqramının ləğv edilməsi artıq sizin cihazınızda RHİ tərəfindən qorunan tərkibin yeniləşməsinin qarşısını ala bilər. Belə RHİ proqramının ləğvi RHİ başqa növləri tərəfindən qorunan digər tərkiblərin istifadəsinə, və ya RHİ tərəfindən qorunmayan tərkiblərə təsir etməyəcək.

Rəqəmli hüquqların idarəsi (RHİ) tərəfindən qorunan tərkib birgə fəallaşdırma düyməsi vasitəsilə görünür ki, bu da tərkibdən istifadə etmək üçün Sizin hüquqlarınızı müəyyənləşdirir.

Əgər Sizin cihazda OMA RHİ qorunan tərkib varsa, hər iki fəallaşdırma düyməsini və tərkibin geriyə qaytarması üçün Nokia ŞK Dəstinin köçürtmə xüsusiyyətindən istifadə edin. Digər ötürmə metodları ola bilsin ki, cihazın yaddaşını formatladıqdan sonra Sizin üçün Oma RHİ istifadəni davam etmək imkanına malik olmaq üçün ötürüləsi tərkibi fəallaşdırma düymələrini köçürməsin. Siz həmçinin cihazınızdakı faylların pozulduğu təqdirdə fəallaşdırma düymələrini bərpa etməli ola bilərsiniz.

Əgər Sizin cihazda WMDRM qorunan tərkib varsa, cihaz yaddaşının formallaşdırılması zamanı fəallaşdırma düymələri və tərkib itiriləcək. Sizin cihazınızdakı faylların pozulması zamanı da fəallaşdırma düymələri və tərkibdən məhrum ola bilərsiniz. Fəallaşdırma düymələri, və ya tərkibi itirmək Sizin cihazınızda həmin tərkibdən təkrar istifadə etmək imkanınızı məhdudlaşdıra bilər. Daha geniş məlumat almaq üçün sizə xidmət göstərən müəssisə ilə əlaqə saxlayın.

# 1. Cihazın işə salınması

## SIM kart və batareyanı daxil edin

Batareyanı çıxararkən həmişə cihazı söndürün və enerjı qurğusundan ayırın.

SIM kart və onun əlaqələri sıyırmalar və əyilmələrlə zədələnə bilər, ona görə də kartı daxil edərkən, çıxararkən və əldə tutarkən ehtiyatlı olun. SIM kartın qızılı rəngli tərəfini aşağıya doğru daxil edin.



# Batareyanın doldurulması

Batareyanız əvvəlcədən yüklənilib lakin yükləmə səviyyələri fərqli ola bilər.



1. Adapteri divar rozetkasına qoşun.
2. Adapteri telefonunuza qoşun.
3. Batareya tam dolu olduqda, adapteri əvvəl telefondan sonra isə divar rozetkasından ayırın.

# Telefonu yandırın və söndürün



1. İşəsalma düyməsini basıb saxlayın.
2. Əgər telefon PIN kodunu tələb edirsə, kodu daxil edin (məsələn, **** görünür), və seçin **OK**.

Telefonunuzu ilk dəfə işə salaraq və telefon gözləmə rejimində olarkən xidmət təminatçınızdan konfiqurasiya parametrlərini əldə etmək sizdən xahiş olunur. Sorğunu təsdiq və ya ondan imtina edin. Baxın “Konfiqurasiya”, səh. 37, və “Konfiqurasiya parametrlərinin xidməti”, səh. 10.

# Vaxtı, qurşağı və tarixi təyin edin

Telefonunuzu ilk dəfə işə salaraq və telefon gözləmə rejimində olarkən saatı və tarixi daxil etmək sizdən xahiş olunur. Boşluqları doldurun və seçin **Saxla**.

Vaxt və tarix parametrlərini dəyişdirmək üçün seçin **Menyu** > *Parametrlər* > *Vaxt və tarix* > *Date and time settings (Vaxt və tarix parametrləri)*, *Date and time format settings (Vaxt və tarix format parametrləri)* yaxud *Tarix və saatın avt. yenilənməsi (şəbəkə xidməti)*.

# Antena



Cihazınızda daxili və xarici antenlər ola bilər. İstənilən radio ötürücü cihazda olduğu kimi, anten ötürən və ya qəbul edən zaman lazımsız yerə toxunmayın. Belə bir vəziyyətdə olan antennaya toxunduqda, bu rabitənin keyfiyyətinə təsir edir, qurðunun lazým olduðundan da yüksək enerji sərf etməsinə səbəb ola və batareyanı zəiflədə bilər.

# Telefonunuzu və kompyuteri bir-birinə qoşun

CA-101 məlumat kabeli məlumatın ötürülməsi və telefonunuz və kompyuterinizi sinxronlaşdırması üçün istifadə olunur. Bax “Məlumat ötürülməsi”, səh. 34.




Siz Nokia PC Suite proqramından cihazınızda istifadə etmək üçün onu yükləməlisiniz. Ətraflı məlumat üçün baxın www.nokia.com/support.

1. CA-101 məlumat kabelini telefonunuzun aşağı sol hissəsində yerləşən mikro USB portuna qoşun.
2. CA-101 məlumat kabelini sizin kompyuter yaxud noutbukunuza qoşun. *USB məlumat kabeli qoşulub*. Rejimi seçin. telefonunuzun ekranında peyda olur.
3. Seçin *OK* və *Nokia mode*.

# Düymələr və hissələr

1. Qulaqlıq
2. Əsas ekran
3. Orta seçim düyməsi
4. Sol seçim düyməsi
5. Sağ seçim düyməsi
6. Navi™ düyməsi, burada fırlama düyməsi adlanır
7. Zəng düyməsi
8. Tamamlama düyməsi/İşəsalma düyməsi; zəngləri sona yetirir (qısaca basın) və telefonu işlək vəziyyətə salır və söndürür (düyməni basıb saxlayın)
9. Klaviatura



10. Qulaqlıq birləşdiricisi
11. Adapter birləşdiricisi
12. Kamera düyməsi yaxud PTT aktiv olduqda PTT düyməsi
13. Səs ucalıqı düyməsi
14. USB birləşdiricisi




15. Kamera linzaları
16. Miniekran; analoq saat ekran qoruyucusu




## microSD kartı

microSD kartına zəng siqnalları, mövzular, tonlar, təsvirlər və videolar kimi məzmun yükləmək olar. Əgər bu kartı silsəniz, yenidən yükləsəniz və ya əvəzləsəniz, bu funksiyalar düzgün işləməyə bilər.

Bu telefon üçün Nokia tərəfindən təsdiq edilmiş müvafiq microSD kartlardan istifadə edin. Nokia yaddaş kartları üçün təsdiqlənmiş sənaye standartlarından istifadə edir, amma bəzi kart modelləri bu cihaza tam uyğun olmaya da bilər. Uyğun olmayan yaddaş kartının istifadəsi yaddaş kartını, habelə cihazı zədələyə bilər, həmçinin kartda saxlanılan məlumat pozula bilər. Telefon işləyərkən onu söndürmədən microSD kartı çıxara və ya daxil edə bilərsiniz.

**Zəruri məlumat:** Yaddaş kartını ondan istifadə olunarkən əməliyyatın yarısında çıxarmayın. Kartın əməliyyatın ortasında çıxarılması yaddaş kartını, həmçinin cihazı zədələyə bilər, həmçinin uyğun olmayan kartda mühafizə edilən məlumat pozula bilər.




1. Batareya qapağını çıxardın.
   Yaddaş kartının saxlayıcısını açın.
2. Kartı onun qızılı rəngli kontakt tərəfini yuxarı saxlayaraq daxil edin.
3. Kart saxlayıcısını əvvəlki yerinə qaytarın.
4. Yaddaş kartının saxlayıcısını bağlayın.
   Arxa qapağını yerinə salın.

# ■ Gözləmə rejimi

Telefon istifadə üçün hazır olduqda, və siz hər hansı bir simvol daxil edilmədikdə sizin telefon gözləmə rejimindədir.

## Miniekran




**1** Şəbəkə rejimi indikatoru

**2** Mobil şəbəkənin siqnal gücü

**3** Batareyanın doldurulma statusu

**4** İndikatorlar

**5** Şəbəkənin adı və ya operator loqosu

**6** Saat və tarix yaxud profil

## Əsas ekran




**1** Şəbəkə rejimi indikatoru

**2** Mobil şəbəkənin siqnal gücü

**3** Batareyanın doldurulma statusu

**4** İndikatorlar

**5** Şəbəkənin adı və ya operator loqosu

**6** Saat

**7** Əsas ekran

**8** Sol seçim düyməsi **Go to** və yaxud digər funksiya üçün sürətli düymə kimi istifadə olunur. Bax “Sol yaxud sağ seçim düyməsi”, səh. 31.

**9** Orta seçim düyməsi **Menyu**.

**10** Sağ seçim düyməsi Kontaktlar menyusunda kontaktlar siyahısına, operatora daxil olmaq üçün xüsusi operator adı yaxud xüsusi İnternet saytı və ya seçdiyiniz funksiyaya qısa yol **Adlar** ola bilər. Bax "Qısa yollarım", səh. 31.

## Aktiv gözləmə

Aktiv gözləmə rejimində birbaşa istifadə edə biləcəyiniz seçilmiş telefon funksiyalarının siyahısı və məlumat ekranda əks olunur. Rejimi aktivləşdirmək yaxud söndürmək üçün seçin **Menyu** > *Parametrlər* > *Əsas ekran* > *Aktiv gözləmə* > *Aktiv gözləmə rejimi* > *Aktiv et* yaxud *Ləğv et*.

Aktiv gözləmə rejimində siyahıda naviqasiya üçün yuxarı yaxud aşağı diyirləyin. Xəttin əvvəlində və sonunda olan sol və sağ oxlar sola yaxud sağa diyirləməklə əlavə məlumatın mövcudluqunu göstərir. Aktiv gözləmədə naviqasiya rejimini bitirmək üçün seçin **Çıx**.

Aktiv gözləmə rejimini təşkil etmək yaxud dəyişdirmək üçün naviqasiya rejimini aktivləşdirin və seçin **Seçiml.** > *Görüntünü şəxsiləşdir*.

## İndikatorlar

| | |
|---|---|
|  | Oxunulmamış mesajlarınız var. |
|  | Yeni səsli poçtunuz var. |
|  | Göndərilməmiş, ləğv edilmiş yaxud uğursuz mesajlarınız var. |
|  | Buraxılmış zənginiz var. |
| ,  | Telefonunuz cəld mesajlaşma xidmətinə qoşulubdur və mövcudluq statusu onlayn yaxud offlayndır. |
|  | Siz bir yaxud bir neçə cəld mesaj almısınız. |
|  | Klaviatura kilidlidir. |
|  | Telefon daxil olan zəng yaxud mətn mesajı üçün səs siqnalı vermir. |
|  | Zəngli saat aktivləşdirilib. |
|  | Əks istiqamət taymerı aktivdir. |
|  | Saniyəölçən aktivdir. |
|  | Telefon GPRS yaxud EGPRS şəbəkəsində qeydiyyatdadır. |
|  | GPRS və ya EGPRS əlaqəsi yaradılıb. |
|  | GPRS və ya EGPRS əlaqəsi dayandırılıb. |
|  | Bluetooth əlaqəsi aktivləşdirilib. |

, Push-to-talk bağlantısı aktiv yaxud dayandırılmışdır.

İki telefon xəttinə maliksinizsə, ikinci telefon xətti seçilir.

Bütün daxil olan zənglər digər nömrəyə yönəldirilir.

Dinamik aktivdir yaxud musiqi dayaqı telefona qoşulubdur.

Zənglər qapalı istifadəçi qrupu ilə məhdudlaşdırılıb.

Müddətli profil seçilib.

, , , və ya
Qulaqlıq, handsfree, lupset yaxud musiqi dayaqı aksessuarı telefona qoşulubdur.

## Uçuş rejimi

Siz bütün radio tezliklərin funksiyalarını söndürə bilərsiz və buna baxmayaraq şəbəkədən xaric oyunlar, təqvim və telefon nömrələrinə giriş imkanından yararlana biləcəksiz. Uçuş rejimindən radio həssas mühitlərdə istifadə edin—təyyarədə yaxud xəstəxanalarda. Uçuş rejimi işlək vəziyyətdədirsə göstərilir.

Seçin **Menyu** > *Parametrlər* > *Profillər* > *Uçuş* > *Aktivləşdir* və ya *Fərdiləşdir*.

Uçuş rejimini söndürmək üçün istənilən digər profili seçin.

**Xəbərdarlıq:** Cihaz uçuş rejimində olduqda siz zəng edə və ya zəngi qəbul edə və ya şəbəkə əhatəsini tələb edən digər elementləri istifadə edə bilməzsiniz. Zəng etmək üçün siz əvvəl telefonu işə salmaq üçün həmin profilləri dəyişdirməlisiniz. Əgər telefon kilidləndikdə və uçuş profilində olduqda təcili yardım nömrələrinə zəng vurmaq tələb olunursa cihazınızın kilid kodu sahəsində proqramlaşdırılmış təcili yardım nömrələrini daxil edə və *Zəng* funksiyasını seçə bilərsiniz. Cihaz təsdiq edəcək ki, təcili yardım nömrəsinin yığılması üçün siz cari rejimdən çıxırsınız.

# 2. Zənglər

## Zəng etmək

1. Şəhərlərarası kod daxil olmaqla telefon nömrəsini daxil edin.

   Beynəlxalq zəngləri etmək üçün beynəlxalq prefiks üçün * ( + beynəlxalq giriş kodlarını əvəz edir) iki dəfə basın, ölkə kodunu, 0-sız şəhərlərarası kodu (lazım olduqu təqdirdə) və telefon nömrəsini daxil edin.

2. Nömrəyə zəng etmək üçün zəng düyməsini basın.

   Səsi zəng zamnı tənzimləmək üçün səs ucalıqı düyməsini yuxarı və ya aşağı basın.

3. Zəngi bitirmək yaxud cəhdi ləğv etmək üçün tamamlama düyməsini basın yaxud telefonu bağlayın.

Əvvəl yığılmış nömrələrə qısa yol kimi zəng düyməsini bir dəfə basın. Nömrəyə zəng etmək üçün nömrəni yaxud adı seçin və zəng düyməsini seçin.

## Səsli zəngə cavab yaxud imtina

Zəngə cavab vermək üçün zəng düyməsini basın. Zəngi bitirmək üçün tamamlama düyməsini basın.

Zəngdən imtina etmək üçün tamamlama düyməsini basın.

Zəng tonunu səssiz etmək üçün seçin **Səssiz**. Sonra zəngə cavab verin yaxud ondan imtina edin.

## Sürətli yığım

Telefon nömrəni 2-dən 9-a kimi istənilən düyməyə təyin edin. Bax “Sürətli yığım”, s. 29. Nömrəyə aşağıdakı üsullardan biri ilə zəng edin:

- Sürətli yığım düyməsini və sonra zəng düyməsini basın.
- Sürətli yığım aktivləşdirilibsə, sürətli yığım düyməsini zəng başlayana qədər basıb saxlayın. Bax *Tez zəng*, “Zəng”, səh. 35.

## Təkmilləşdirilmiş səsli nömrə yığımı

Səsli nömrə yığımı sizə kontaktlar siyahısından adı söyləməklə zəng etmək imkanını verir. Səs komandaları dildən asılı deyil. Dili təyin etmək üçün bax *Səs tanınma dili*, “Telefon”, s. 36.

**Qeyd:** Səs elementlərinin səs-küylü şəraitdə və təcili yardım tələb edən hadisə zamanı istifadəsi çətinləşə bilər, bu səbəbdən yalnız səsli nömrə yığımına etibar etməyin.

1. Gözləmə rejimində səs ucalıqı düyməsini aşağı basıb saxlayın. Qısa ton səslənir və *İndi danış* əks olunur.
2. Səs komandasını dəqiq söyləyin. Səs tanınması uğurlu keçibsə, uyğunluqlar siyahısı göstərilir. Telefon uyğunluqun səs komandasını siyahının yuxarısında səsləndirir. Nəticə düzgün deyilsə, digər elementə tərəf diyirləyin.

Seçilmiş telefon funksiyanı həyata keçirmək üçün səs komandalarından istifadə səsli nömrə yığımına oxşardır. Bax *Səs əmrləri*, “Qısa yollarım”, s. 31.

# ■ Zəng gözləməsi

Aktiv zəng zamanı gözləyən zəngə cavab vermək üçün seçin *Cavabla*. Birinci zəng müvəqqəti olaraq saxlanılır. Cari zəngi bitirmək üçün tamamlama düyməsini basın. Birinci zəngə ikincini bitirmədən keçmək üçün seçin **Seçiml.** > *Dəyiş*.

*Gözləyən zəng xidməti* funksiyasını aktivləşdirmək üçün baxın “Zəng”, s. 35.

## Zəng zamanı seçimlər

Zəng zamanı istifadə edə biləcəyiniz seçimlərdən çoxu şəbəkə xidmətləridir. Bu seçimlərdən istifadə edə bilmək üçün xidmət təminatçınıza müraciət edin.

Zəng zamanı **Seçiml.** və aşağıdakılardan *Səssiz rejim, Səsli rejim, Kontaktlar, Menyu, Klaviaturu kilidlə, Səs yaz, Səsucaldan* yaxud *Telefon* seçin.

Şəbəkə seçimləri *Cavabla* yaxud *Reject, Gözlətmə* yaxud *Gözlətmə rej. bitir, Yeni zəng, Konfransa əl. et, Zəngi bitir, Bütün zəng. bitir* və aşağıdakılardır:

*Send DTMF (DTMF göndər)* — ton tellərini göndərmək üçün.

*Dəyiş* — aktiv və gözləyən zənglər arasında dəyişmək üçün.

*Transferxt* — gözləyən zəngi aktiv zəngə qoşmaq üçün və öz əlaqənizi bitirmək üçün.

*Konfrans* — beş nəfərə qədər konfrans zəngini etmək üçün.

*Gizli zəng* — konfrans zəngində şəxsi danışıq aparmaq üçün.

**Xəbərdarlıq:** Mikrofon istifadə edildikdə cihazı qulağınıza yaxın tutmayın, çünki səs dərəcəsi çox yüksək ola bilər.

# 3. Mətn yaz

Siz adi və ya sadələşdirilmiş mətn yığılması funksiyalardan istifadə edərək mətni daxil edə bilərsiniz. Adi mətn yığımı ilə siz düyməni düzgün hərfin peyda olunmasına qədər basırsınız. Sadələşdirilmiş mətn yığımı ilə siz hər hərf üçün düyməni bir dəfə basırsınız və telefon özü sözü tapır. Mətni yazdıqda mətn yığımı üsulları arasında dəyişmək üçün Seçiml. seçin. Bəzi dillər sadələşdirilmiş mətn yığılması tərəfindən dəstəklənmir.

İşarələrin registri aşağıdakılarla Abc, abc, və ABC göstərilib. İşarənin registrini dəyişdirmək üçün **#** düyməsinə basın. Bu işarə ilə ifadə olunan 123, hərf tərzindən rəqəm tərzinə keçmək üçün **#**, düyməsinə basıb və saxlayaraq *Nömrə rejimi* seçin. Rəqəm tərzindən hərf tərzinə keçmək üçün **#** düyməsinə basın və saxlayın.

Yazı dilini müəyyən etmək üçün **Seçiml.** > *Yazı dili* seçin.

## Sadələşdirilmiş mətn yığılması

**Məsləhət:** Mətn yazılması zamanı sadələşdirilmiş mətn yığımını aktiv yaxud ləğv etmək üçün iki dəfə **#** basın.

Sadələşdirilmiş yığım növünü seçmək üçün seçin **Seçiml.** > *Prediction sett. (Proqnoz param.)* > *Proqnoz növü* > *Normal* yaxud *Söz təklifləri*.

Sadələşdirilmiş mətn yığılması daxili lüğət əsasında qurulub və siz bu lüğətə yeni sözlər əlavə edə bilərsiz.

1. Sözü 2-dən 9-a qədər düymələrdən istifadə edərək yazın. Ayrılıqda olaraq məna kəsb edən sözü telefon ***** işarəsi ilə yaxud hərf ilə ekranda göstərir. Daxil olunan hərflərin altından ekranda xətt çəkilir.

2. Sözü daxil etdikdən sonra və onun düzgün olduğu halda təsdiq üçün 0 düyməsinə basmaqla boşluq əlavə edin.

   Əgər söz düzgün deyil, ***** düyməsinə təkrarlayaraq basın ki siyahıdan sözü seçəsiz.

   Əgər sözdən sonra ? simvolu peyda olursa deməli yazmaq istədiyiniz söz lüğətdə yoxdur. Sözü lüğətə əlavə etmək üçün **Hərfbəh.** seçin. Sadələşdirilmiş mətn yığılması ilə sözü daxil edin və **Ya. saxla** seçin.

   Mürəkkəb sözləri yazmaq üçün sözün birinci hissəsini daxil edin və təsdiq üçün sağa fırladın. Sözün son hissəsini yazın və təsdiq edin.

3. Növbəti sözü yazmağa başlayın.

## ■ Adi mətn yığılması

1-dən -9-a-kimi rəqəm düyməsini arzuladığınız işarənin peyda olunmasına qədər təkrarlayaraq basın. Mövcud olan işarələr seçilmiş yazı dilindən asılıdır. Boşluq üçün **0** basın. Ən çox istifadə olunan punktuasiya və xüsusi işarələr **1** düyməsinə təyin olunub.

Adi mətn yığımını qurmaq üçün seçin **Seçiml.** > *Prediction sett. (Proqnoz param.)* > *Proqnoz* > *Ləğv et*.

Əgər istədiyiniz növbət hərf basdıqınız düymədə yerləşirsə, düyməni yenidən basmaqdan əvvəl kursorun peyda olunmasını gözləyin.

# 4. Mesaj xidmətləri

Siz mətn, multimedia, elektron poçt, audio və fleş. mesajları oxuya, yaza, göndərə və saxlaya bilərsiz.

Cihazınız bir mesaj həddindən əlavə mətn mesajlarını dəstəkləyir. Uzun mesajlar iki və daha çox mesaj kimi göndərilir. Sizin xidmət provayderiniz sizdən müvafiq ödəniş tələb edə bilər. Vurğu və digər işarələri istifadə edən simvollar və bəzi dildən olan simvollar daha çox yer tutduğu üçün bir mesaj çərçivəsində göndərilən simvolların sayını məhdudlaşdırır.

Ekranın yuxarı hissəsində olan indikator qalan işarələrin ümumi sayını və göndərmək üçün lazım olan mesaj sayını göstərir. Məsələn, 673/2 deməkdir ki, 673 işarə qalıb və mesaj iki mesaj şəklində göndəriləcək.

## ■ Sadələşdirilmiş mətn yığılması

1. **Menyu** > *Mesajlar* > *Mesaj yarat* > *Text message (Mətn mesajı)* seçin.
2. Bir və ya daha çox telefon nömrəsini və ya elektron poçt ünvanlarını *Kimə:* sahəsinə yazın. Yaddaşdan telefon nömrəsini və ya elektron poçt ünvanını istifadə etmək üçün seçin **Əlavə** et.
3. *Message:* sahəsində yazın.
4. Mesaj göndərmək üçün, seçin **Göndər**.

## ■ Mesajın oxunuşu və cavablanması

1. Qəbul edilmiş mesajı əks etdirmək üçün seçin **Göstər**. Ona sonradan nəzər yetirmək üçün seçin **Çıx**.
2. Mesajı sonra oxumaq üçün seçin **Menyu** > *Mesajlar* > *Gələnlər*.
3. Mesaja cavab vermək üçün seçin **Cavabla**. Cavab mesajını yazın.
4. Mesaj göndərmək üçün, seçin **Göndər**.

## ■ Multimediya mesajları

Yalnız müvafiq elementləri olan cihazlar multimediya mesajlarını qəbul edə və ekranda nümayiş edə bilər. Mesajın görünüşü qəbul edən cihazdan asılı olaraq fərqli ola bilər.

Multimedia mesajında bir neçə əlavə ola bilər.

Multimedia mesaj xidmətinin mövcudluğu və ona abunə olmaqla əlaqədar olaraq xidmət təminatçınız ilə əlaqə saxlayın.

### Multimedia mesajının yazılması və göndərilməsi

Simsiz şəbəkə MMS mesajlarının ölçüsünü məhdudlaşdıra bilər. Əgər daxil edilmiş şəkil bu limiti aşırsa, cihaz onun ölçüsünü dəyişdirə bilər.

1. Seçin **Menyu** > *Mesajlar* > *Mesaj yarat* > *Mesaj* > *Seçim-r* > *To multimedia (Multimediaya).*
2. Bir və ya daha çox telefon nömrəsini və ya elektron poçt ünvanlarını *Kimə:* sahəsinə yazın. Yaddaşdan telefon nömrəsini və ya elektron poçt ünvanını istifadə etmək üçün seçin **Əlavə** et.
3. Mesajınızı yazın. Faylı əlavə etmək üçün ekranın aşağı hissəsində yerləşən piktoqramlara tərəf diyirləyin. İstədiyiniz fayl tipini tapın və sonra seçin *Daxil et*. İstədiyiniz fayla tərəf diyirləyin.
4. Mesajı göndərməzdən əvvəl onu nəzərdən keçirmək üçün seçin **Seçiml.** > *İlkin baxış*.
5. Mesaj göndərmək üçün, seçin **Göndər**.

### Mesajın oxunuşu və cavablanması

**Zəruri məlumat:** Mesajları ehtiyatla açın. Mesajlarda zərərli proqramlar və ya sizin cihaz  və ya kompyuteriniz üçün zərərli olan digər proqramlar ola bilər.

1. Qəbul edilmiş mesajı əks etdirmək üçün seçin **Göstər**. Ona sonradan nəzər yetirmək üçün seçin **Çıx**.
2. Qəbul olunmuş mesajın daxilində prezentasiya varsa, bütöv mesajı nəzərdən keçirmək üçün seçin **Çal**.

   Faylları prezentasiya yaxud əlavələrdə nəzərdən keçirmək üçün seçin **Seçiml.** > *Obyektlər* yaxud > *Qoşmalar*.

3. Mesaja cavab vermək üçün seçin **Seçiml.** > *Cavab ver* > *Mətn mesajı*, *E-poçt mesajı*, *Flash mesajı* yaxud *Audio mesaj*. Cavab mesajını yazın.
4. Mesaj göndərmək üçün, seçin **Göndər**.

# ■ Fleş mesajlar

**Menyu** > *Mesajlar* > *Mesaj yarat* > *Flash mesajı* seçin. Mesajı qəbul edənin nömrəsini daxil edin və mesajınızı yazın.

Fleş mesajlar qəbul olunarkən dərhal telefonun ekranında göstərilən mətn mesajlarıdır. Fleş mesajlar avtomatik olaraq saxlanırmır.

# ■ Nokia Xpress audio mesajlaşma

Siz MMS-dən audio mesajı yaratmaq və göndərmək üçün istifadə edə bilərsiniz. Səsli mesajlardan istifadə etməkdən əvvəl MMS xidməti işlək vəziyyətdə olmalıdır.

1. **Menyu** > *Mesajlar* > *Mesaj yarat* > *Audio mesaj* seçin. Diktofon açılır.
2. Mesajınızı söyləyin.
3. Bir və ya bir neçə telefon nömrəsini *Kimə:* sahəsinə və yaxud nömrəni bərpa etmək üçün **Əlavə et** seçin.
4. **Göndər** seçin yaxud zəng düyməsinə basın.

Gələn səsli mesajı açmaq üçün **Çal** seçin. Əgər gələn mesajın sayı birdən artıqdır **Göstər** > **Çal** seçin. Mesaja sonra qulaq asmaq üçün **Çıx** seçin.

# ■ Yaddaş doludur

Siz bu bildirişi aldıqda, *Yaddaş doludur. Mesajlar qəbul edilmir.*, siz bir neçə elementi silməlisiniz. İlk növbədə köhnə mesajları silmək üçün **OK** > **Bəli** və qovluqu seçin. İstədiyiniz mesaja doğru fırladın və seçin **Sil**. Bir neçə mesajı silmək üçün seçin **İşarələ**. Silmək istədiyiniz bütün mesajları işarələyin və sonra seçin **Seçiml.** > *İşarəliləri sil*.

# ■ Elektron poçt qutusu

Elekton məktubları göndərməkdən və qəbul etməkdən əvvəl siz yeni elektron poçt ünvanı əldə etməlisiniz yaxud cari ünvanınızdan istifadə etməlisiniz. Elektron poçt ünvanınızın mövcudluqunu yoxlamaq üçün, elektron poçt xidmət təminatçınızla əlaqə saxlayın.

## Elektron poçtun quraşdırılması

Seзin **Menyu** > *Mesajlar* > *Mənim poçt qutum* > **Seçim** > *Poçt qutu əlavə et* > *Saxlanmış para*.

Parametrləri əl ilə daxil etmək üçün **Menyu** > *Mesajlar* > *Mənim poçt qutum* > **Seçiml.** > *Poçt qutu əlavə et* > *Əl ilə yarat* seçin.

Siz elektron poçtun konfiqurasiya parametrlərini konfiqurasiya mesajı şəklində qəbul edə bilərsiniz.

## Poçt qutusunun açılması

Poçt qutusunu açdıqda cihaz poçt qutusuna qoşulmaq istədiyinizi soruşur **(Poçt qutuma qoşulmaq?)**.

Poçt qutunuza qoşulmaq və yeni elektron poçt başlıqları yaxud məktubları qəbul etmək üçün seзin **Bəli**. Məktublara onlayn baxdıqda siz məlumat bağlantısından istifadə edərək daimi şəkildə uzaq poçt qutusuna qoşulmuş olursunuz.

Əvvəl qəbul olunmuş elektron məktublara offlayn olaraq baxmaq üçün seçin **Xeyr**. Məktublara offlayn baxdıqda sizin cihaz uzaq poçt qutusuna qoşulmuş deyil.

## Elektron poçt yaz və göndər

Elektron məktubu elektron poçt xidmətinə qoşulmazdan əvvəl yaza bilərsiniz yaxud əvvəlcə xidmətə qoşulun, sonra isə elektron məktubu yazıb göndərin.

1. Seçin **Menyu** > *Mesajlar* > *Mesaj yarat* > *E-poçt*.
2. Əgər birdən çox e-poçt hesabı təyin olunubsa elektron məktubu göndərəcəyiniz hesabı seçin.
3. Mesajı qəbul edən tərəfin elektron poçt ünvanını daxil edin, başlığı yazın və elektron poçt məktubunu daxil edin. Faylı Qalereya-dan əlavə etmək üçün seçin **Seçiml.** > *Daxil et*.
4. Elektron məktubu göndərmək üçün seçin **Göndər** > *İndi göndər*.

## Elektron poçtun oxunuşu və cavablanması

**Zəruri məlumat:** Mesajları ehtiyatla açın. Elektron poçt mesajlarda zərərli proqramlar və ya sizin cihaz və ya kompyuteriniz üçün zərərli olan digər proqramlar ola bilər.

1. **Menyu** > *Mesajlar,* elektron ünvanı və istədiyiniz elektron məktubu seçin.
2. Elektron poçta cavab vermək üçün seçin **Seçiml.** > Cavab ver. Elektron poçt ünvanı və mövzunu təsdiq yaxud redaktə edin, sonra cavab məktubu yazın.
3. Məktubu göndərmək üçün seçin **Göndər** > *Send now (İndi göndər)*.

# ■ Cəld mesajlaşma

Cəld mesajlaşmanın köməyi (CM) (şəbəkə xidməti) ilə siz kiçik və sadə mətn mesajları şəbəkə daxilində olan istifadəçilərə göndərə bilərsiz. Telefon İnternetə qoşulmuş olmalıdır və bu funksiyadan istifadə etməyinizdən əvvəl siz istifadə etmək istədiyiniz CM xidmətində qeydiyyatdan keçməlisiniz. CM xidmətlərinə yazılmaq ilə bağlı daha ətraflı məlumat üçün xidmət təminatçınızla əlaqə saxlayın.

# ■ Səsli mesajlar

Səsli poçt qutusu bir şəbəkə xidmətidir və ona yazılmaq sizə lazım ola bilər. Daha geniş məlumat almaq üçün sizə xidmət göstərən müəssisə ilə əlaqə saxlayın.

Səsli poçt qutusuna zəng etmək üçün **Menyu** > *Mesajlar* > *Səsli mesajlar* > *Listen to voice msgs. (Səsli mesajlara qulaq as)* seçin. Səsli poçt qutunun nömrəsinin daxil edilməsi, axtarışı yaxud redaktəsi üçün *Səsli poçtun nömrəsi* seçin.

Şəbəkə tərəfindən dəstəkləndiyi halda,  yeni səsli mesajları göstərir. Səsli poçt qutunun nömrəsinə zəng etmək üçün **Qulaq as** seçin.

# ■ Mesaj parametrləri

## Ümumi parametrlər

Mətn və multimedia mesajları üçün ümumi parametrlər eynidir.

**Menyu** > *Mesajlar* > *Mesaj prmtrləri* > *Ümumi para*. və aşağıdakılardan seçin:

*Göndərilən mesajları saxla* — seçin ki, telefon göndərilmiş mesajları Göndərilmiş qovluqunda saxlasın.

*Overwriting in Sent (Göndərilmiş-də yeniləmə) İcazə verilir* — seçin ki, telefon mesaj yaddaşı dolu olan zaman köhnə göndərilmiş mesajları yeni mesajlarla əvəzləsin.
Bu parametr yalnız *Göndərilən mesajları saxla* > *Bəli* təyin etdiyiniz halda göstərilir.

*Seçilmiş qəbuledən* — seçim siyahılarının yuxarısında göstərilən qəbuledəni seçmək üçün.

*Şrift ölçüsü* — mesajlarda istifadə olunan şrift ölçüsünü seçmək üçün.

*Qrafik təbəssüm işarələri Bəli* — telefon işarələrlə ifadə olunan gülən üzləri qrafik gülən üzlərlə dəyişdirilməsini müəyyən etmək üçün.

## Mətn mesajları

Mətn mesajı parametrləri SMS mesajların göndərilməsi, qəbulu və nəzərdən keçirməsinə təsir edir.

Seçin **Menyu** > *Mesajlar* > *Mesaj parametrləri* > *Mətn mesajları* və aşağıdakılardan:

*Çatdırılma hesabatı* — şəbəkədən sizin mesaj barədə çatdırma hesabatlar göndərilməsini seçin (şəbəkə xidməti).

*Mesaj mərkəzləri* — mətn mesajların göndərilməsi üçün tələb olunan mesaj mərkəzinin telefon nömrəsi və adını təyin etmək üçün seçin *Mərkəz əlavə et*. Siz bu nömrəni xidmət təminatçınızdan qəbul edirsiniz.

*Msj mərk. ist. olunur* — istifadə edilən mesaj mərkəzini seçmək üçün.

*Mesajın müddəti* — şəbəkənin mesajınızı çatdırmaq üçün sərf edəcəyi müddəti seçmək.

*Msjların gönd. form.* — göndəriləcək mesajların formatını seçmək: *Mətn*, *Səhifələmə* və ya *Faks.*

*Paket məlmt. ist. et* — GPRS-i üstün tutulan SMS daşıyıcısı kimi təyin etmək üçün.

*Character support* — göndəriləcək mesajlarda bütün işarələrin nəzərdən keçirilmiş kimi seçmək üçün *Tam* seçin. Əgər İxtisar edilmiş, seçsəniz, vurğu və digər nişanlar başqa işarələrə çevrilə bilər.

*Həmin mərk. cavabla* — mesajını qəbul edən şəxsin cavabı həmin mesaj mərkəzi vasitəsilə göndərilməsinə icazə vermək (şəbəkə xidməti).

# Multimedia mesajları

Mesaj parametrləri multimedia mesajlarının göndərilməsinə, qəbul edilməsinə və nəzərdən keçirilməsinə təsir edir. Multimediya mesajları üçün konfiqurasiya parametrlərini konfiqurasiya mesajı kimi qəbul edə bilərsiniz. Bax “Konfiqurasiya parametrlərinin xidməti”, səh.10. Parametrləri əl ilə də daxil edə bilərsiniz. Bax “Konfiqurasiya”, səh.37.

Seçin **Menyu** > *Mesajlar* > *Mesaj parametrləri* > *Multimedia msjlar* və aşağıdakılardan:

*Çatdırılma hesabatı* > *Bəli* — şəbəkədən sizin mesaj barədə çatdırma hesabatlar göndərilməsini seçin (şəbəkə xidməti).

*MMS yaratma rejimi* — mesajlara müxtəlif növ multimedianın əlavəedilməsini məhdudlaşdırmaq və ya buna imkan vermək.

*MMS-də şəkil ölçüsü* — multimedia mesajlarında təsvirin ölçüsünü təyin etmək üçün.

*Defolt slayd zamanı* — multimedia mesajlarında slaydlar arasında ilkin təyin edilmiş vaxtı müəyyən etmək üçün.

*Multimedia qəbuluna icazə ver* — multimedia mesajının qəbul olunmasını və ya imtinası üçün *Bəli* yaxud *Xeyr* seçin. Əgər *Daxili şəbəkə* seçsəniz, daxili şəbəkədən kənarda multimediaa mesajları qəbul edə bilməyəcəksiniz. Multimedia mesajı xidmətində parametr aşağıdakıdır *Daxili şəbəkə*. Bu menyunun mövcudluqu telefonunuzdan asılıdır.

*Daxil olan multimedia mesajlar* — multimedia mesajlarının qəbuluna avtomatik, bildirişdən sonra azad seçiminə yaxud imtinasına icazə vermək üçün. Əgər *MMS qəbuluna icazə Xeyr* kimi təyin olunubsa, bu parametr görünməyəcək.

*Reklam qəbulu* — elanları qəbul etmək və ya onlardan imtina etmək üçün. Əgər *MMS qəbuluna icazə Xeyr* və ya *Daxil olan multimedia mesajlar* Rədd et *kimi təyin olunarsa*, bu parametr əks olunmayacaq.

*Configuration settings* — Yalnız multimedia mesajlaşmasını dəstəkləyən konfiqurasiyaları göstərmək üçün seçin *Konfiqurasiya*. Xidmət təminatçısını seçin, *Defolt* və ya *Şəxsi konfiq*. multimedia mesajlaşma üçün. *Hesab* və aktiv konfiqurasiya parametrlərinə daxil olan MMS hesabını seçin.

# Elektron poçt məktubları

Parametrlər elektron poçtun göndərilməsi, qəbulu və nəzərdən keçirməsinə təsir edir. Parametrləri konfiqurasiya mesajı kimi qəbul edə bilərsiniz. Bax “Konfiqurasiya parametrlərinin xidməti”, səh. 10. Parametrləri əl ilə də daxil edə bilərsiniz.
Bax “Konfiqurasiya”, səh. 37.

Seçin **Menyu** > *Mesajlar* > *Mesaj parametrləri* > *E-poçt mesajları* və aşağıdaklardan:

*New e-mail notification (Yeni el. poçt bilidirişi)* — yeni elektron poçt bildirişini yandırmaq yaxud söndürmək üçün.

*Allow e-mail reception (El. poçt qəbuluna icazə ver)* — mesajların qəbuluna həmişə yaxud yalnız daxili şəbəkədə icazə vermək üçün.

*Reply with original message text (İlkin mesaj mətni ilə cavabla)* — qəbul olunmuş məktubun mətni daxil olmaqla cavab vermək.

*E-poçtda şəkil ölçüsü* — elektron məktubda təsvirin standart ölçüsünü təyin etmək üçün.

*Poçt qutularını redaktə et* — istifadə edilən poçt qutularını əlavə etmək, silmək yaxud redaktə etmək üçün.

# 5. Kontaktlar

Adları və telefon nömrələrini (kontaktları) telefonun və SIM kartın yaddaşında saxlaya bilərsiniz.

Telefonun yaddaşı kontaktları müxtəlif telefon nömrələr və mətn bəndləri kimi əlavə təfsilatları ilə yaddaşa yaza bilər. Məhdudlaşdırılmış sayda kontaktlar üçün siz həmçinin təsviri yaddaşda saxlaya bilərsiz.

SIM kart yaddaşı adları onlara aid olan bir telefon nömrə ilə yadda saxlaya bilir. SIM kart yaddaşında saxlanılan kontaktlar aşağıdakı işarə ilə təsvir olunurlar .

Kompyuterdən sinxronlaşdırma üçün bax “Qoşulma qabiliyyəti”, s. 32.

## Kontaktın axtarışı

Seçin **Menyu** > *Kontaktlar* > *Adlar*. Kontaktlar siyahısını gözdən keçirin və ya axtardığınız adın ilk hərflərini daxil edin.

## Adları və telefon nömrələrini saxla

Adlar və nömrələr istifadə olunan yaddaşa yazılır. Adı və telefon nömrəsini saxlamaq üçün seçin **Menyu** > *Kontaktlar* > *Adlar* > **Seçiml.** > *Yeni kont. əl. et*.

## Təfsilatları saxla

Telefon yaddaşında müxtəlif telefon nömrələrini, səs tonları və ya videoklipləri və kontaktlar üçün qısa mətn parçalarını saxlaya bilərsiniz.

Birinci saxladıqınız nömrə avtomatik olaraq standart nömrə kimi təyin olunur və nömrə növünün indikatoru yanında çərçivə ilə göstərilir (məsələn, ). Adı kontaktlardan seçdiyiniz halda (məsələn, zəng etmək üçün), digər nömrə seçilmədikdə standart nömrədən istifadə edilir.

İstifadə olunan yaddaşın *Telefon* yaxud *Telefon və SIM* olduqunu yoxlayın.
Bax “Parametrlər”, səh. 29.

Təfsilatı əlavə etmək istədiyiniz kontaktı axtarın və seçin **Detallar** > **Seçiml.** > *Detal əlavə et*.

# Kontaktların surətininin çıxarılması və ya köçürülməsi

Siz kontaktları telefon və SIM kart yaddaşı arasında köçürə və ya onların surətini çıxara bilərsiniz. SIM kart adları bir telefon nömrəsi ilə saxlaya bilər.

Kontaktları bir-bir köçürmək və ya surətlərini çıxarmaq üçün seçin **Menyu** > *Kontaktlar* > *Adlar*. Kontakta tərəf keçin və seçin **Seçiml.** > *Kontaktı köçür* və ya *Kontaktı kopyala*.

İşarəlnmiş kontaktı birdən köçürmək yaxud surətini çıxarmaq üçün seçin **Menyu** > *Kontaktlar* > *Adlar*. Kontakt tərəfə keçin və seçin **Seçiml.** > *İşarələ*. Sonra digər kontaktları işarələyib seçin **Seçiml.** > *İşarəliləri köçür* və ya *Kopyalanacaqlar*.

Kontaktları köçürmək və ya surətlərini çıxarmaq üçün seçin **Menyu** > *Kontaktlar* > *Kontaktlar köçür*. və ya *Kontaktları kopyala*.

# Kontakt təfsilatlarını redaktə et

Kontaktı axtarın və seçin **Detallar**. Adı, nömrəni, mətn elementini redaktə etmək yaxud təsviri dəyişmək üçün seçin **Seçiml.** > *Düzəlt*. Nömrə növünü dəyişdirmək üçün istədiyiniz nömrəyə tərəf diyirləyin və seçin **Seçiml.** > *Növünü dəyiş*. Seçdiyiniz nömrəni standart nömrə kimi təyin etmək üçün seçin *Defolt təyin et*.

# Tam sinxronlaşdırma

Təqviminizi, kontaktlarınızı, məlumatınızı və qeydlərinizi uzaq İnternet serveri ilə sinxronlaşdırın (şəbəkə xidməti). Ətraflı məlumat üçün bax “Serverdən sinxronizasiya”, səh. 34.

# Kontaktları silmək

Bütün kontaktları və onların təfsilatlarını telefon yaxud SIM kart yaddaşından silmək üçün seçin **Menyu** > *Kontaktlar* > *Delete all contacts (Bütün kontaktları sil)* > *From phone mem. (Tel. yaddaşından)* yaxud *SIM kartdan*.

Kontaktı silmək üçün istədiyiniz kontaktı axtarın və seçin **Seçiml.** > *Kontaktı sil*.

Nömrəni, mətn elementini yaxud kontakta əlavə edilmiş təsviri silmək üçün kontaktı axtarın və seçin **Detallar**. İstədiyiniz təfsilata doğru diyirləyin və seçin **Seçiml.** > *Sil*.

# Vizitkalar

Siz digər şəxsin əlaqə məlumatını vCard standartını dəstəkləyən cihazdan göndərə və ya qəbul edə bilərsiz.

Vizitkanı göndərmək üçün məlumatı göndəriləcək kontaktı tapın və seçin **Seçiml.** > *Send bus. card (Vizitkanı göndər)*.

Vizitkanı qəbul edərək onu telefonun yaddaşında saxlamaq üçün **Göstər** > **Saxla** seçin. Vizitkadan imtina etmək üçün **Çıx** > **Bəli** seçin.

## ■ Parametrlər

Seçin **Menyu** > *Kontaktlar* > *Parametrlər* və aşağıdakılardan:

*İstifadədə olan yaddaş* — kontaktlarınız üçün SIM kart yaxud telefon yaddaşını seçmək üçün. Hər iki yaddaşdan nömrələri əldə etmək üçün *Telefon və SIM* seçin. Belə bir halda əgər siz adları və nömrələri saxlayırsınızsa, onlar telefon yaddaşında saxlanılır.

*Kontaktlar görüntüsü* — adların və nömrələrin Kontaktlar-da necə əks olunacaqı seçmək üçün.

*Ad formatı* — kontaktın adının yaxud soyadının ilk görünəcəyini seçmək üçün.

*Şrift ölçüsü* — kontaktlar siyahısı üçün şriftin ölçüsü təyin etmək üçün.

*Yaddaşın statusu* — boş və dolu yaddaş tutumuna baxmaq üçün.

## ■ Qruplar

Yaddaşda saxlanılan adları və telefon nömrələrini fərqli səs tonları və qrup təsvirləri olan qruplarda təşkil etmək üçün seçin **Menyu** > *Kontaktlar* > *Qruplar*.

## ■ Sürətli yığım

Nömrəni sürətli yığım düyməsinə təyin etmək üçün seçin **Menyu** > *Kontaktlar* > *Tez zənglər* və sürətli yığım nömrəsinə tərəf diyirləyin.

Seçin **Təyin et** yaxud, əgər düyməyə artıq nömrə təyin edilibsə, seçin **Seçiml.** > *Dəyişdir*. **Axtar** və təyin etmək istədiyiniz kontaktı müəyyən edin. Əgər *Tez zəng* funksiyası söndürülübsə, telefon onu yandırmaq istəyib-istəmədiyinizi soruşacaq. Həmçinin bax *Tez zəng*, “Zəng”, s. 35.

Sürətli yığım düymələri vasitəsilə zəng etmək üçün bax “Sürətli yığım” s. 19.

# 6. Jurnal

Seçin **Menyu** > *Zəng tarixçəsi* > *Cavabsız zənglər*, *Qəb. edil. znglər*, və ya *Yığılan nömrələr*. Xronoloji tərzdə son buraxılmış və qəbul olunmuş zəngləri və yığılmış nömrələri nəzərdən keçirmək üçün seçin *Zəng tarixçəsi*. Ən son mesaj göndərdiyiniz kontaktları əks etdirmək üçün seçin *Mesaj alanlar*.

Nə qədər mətn və multimediya mesajları göndərdiyinizə və qəbul etdiyinizə baxmaq üçün seçin **Menyu** > *Zəng tarixçəsi* > *Mesaj tarixçəsi*.

**Qeyd:** Xidmət provayderinin zənglər və xidmətlər üçün hesab fakturaları şəbəkənin xüsusiyyətlərindən, hesabların hazırlanması qaydasından və sair faktorlardan asılı olaraq fərqlənə bilər.

# 7. Parametlər

## Profillər

Telefonunuzda profillər adlanan müxtəlif parametr qrupları mövcuddur ki, siz onları müxtəlif hadisələr və şəraitlər üçün telefon tonları ilə şəxsiləşdirəsiniz.

**Menyu** > *Parametrlər* > *Rejimlər*, arzu edilən profil və aşağıdakılardan seçin:

*Aktivləşdir* — seçilmiş profili aktivləşdirmək üçün.

*Şəxsiləşdir* — profili dəyişdirmək üçün.

*Müddətli* — profili 24 saata qədər müəyyən vaxt ərzində aktiv olmağa kökləmək və vaxtı təyin etmək. Profil müddəti bitəndən sonra, müddəti təyin olunmamış əvvəlki profil aktiv olunur.

## Mövzular

Mövzuya telefonunuzun şəxsiləşdirmək üçün elementlər daxildir.

Seçin **Menyu** > *Parametrlər* > *Mövzular* və aşağıdakılardan:

*Mövzu seç* — mövzunu təyin etmək üçün. Qalereyadakı qovluqlar siyahısı açılır. Mövzular qovluqunu açın və mövzunu seçin.

*Mövzu yükləmələri* — daha çox mövzu yükləmək üçün linklər siyahısını açmaq.

## Tonlar

Siz seçilmiş aktiv profilin ton parametrlərini dəyişdirə bilərsiniz.

Seçin **Menyu** > *Parametrlər* > *Melodiyalar*. Siz eyni parametrləri Rejimlər menyusunda tapa bilərsiniz.

Əgər siz ən yüksək zəng tonu dərəcəsini seçsəniz, zəng tonu bir neçə saniyədən sonra öz ən yüksək səviyyəsinə çatacaq.

Telefonu yalnız seçilmiş qrupa aid olan telefon nömrələri üçün zəng etdiyini qurmaq üçün seçin *Qrup üçün siqnal*. İstədiyiniz qrupa tərəf diyirləyin yaxud *Bütün zənglər* və seçin **İşarələ**.

Parametrləri saxlamaq üçün **Seçiml.** > *Saxla* və ya parametrləri dəyişdirməmək üçün *Ləğv et* seçin.

## Əsas ekran

**Menyu** > *Parametrlər* > *Əsas göstərmə* və mövcud seçimlərdən seçin:

*Divar kağızı* — gözləmə rejimində arxa plan təsvirini əlavə etmək üçün.

*Aktiv gözləmə* — aktiv gözləmə rejimini aktivləşdirmək yaxud ləğv etmək yaxud aktiv gözləmə rejimini təşkil etmək yaxud şəxsiləşdirmək üçün.

*Gözləmə rejimi üçün şrift rəngi* — gözləmə rejimində mətnlər üçün rəngi seçmək üçün.

*Naviq. düymə işarə.* — aktiv gözləmə rejimi söndürüldükdə gözləmə rejimində naviqasiya düyməsi üçün cari qısa yol ikonalarını əks etdirmək üçün.

*Bildiriş detalları* — buraxılmış zənglər yaxud mesajın qəbul edilməsi bildirişində kontakt məlumatı kimi təfsilatları göstərmək və gizlətmək.

*Qapaq animasiyası* — telefonu açıb və bağladıqda onun animasiya göstərdiyini qurmaq üçün.

*Şrift ölçüsü* — mesajlaşma, kontaktlar və İnternet səhifələri üçün şriftin ölçüsü təyin etmək üçün.

*Operator loqotipi* — telefonun operator loqotipini göstərməsini və ya gizləməsini təyin etmək üçün.

*Hücrə informasiyası göstərilməsi* — şəbəkədən mövcud olduqu halda hücrə üzrə məlumatı əks etdirmək üçün.

# ■ Miniekran

Seçin **Menyu** > *Parametrlər* > *Kiçik göstərmə*. Siz divar kağızı, ekran qoruyucusu, enerjiyə qənaət edən, yuxu rejimi və qapaq animasiyasının parametrlərini dəyişdirə bilərsiniz.

# ■ Tarix və vaxt

Vaxt və tarix parametrlərini dəyişdirmək üçün seçin **Menyu** > *Parametrlər* > *Tarix və vaxt*.

# ■ Qısa yollarım

Şəxsi sürətli düymələrin köməyi ilə siz telefonda çox istifadə olunan funksiyalara tez bir zamanda giriş yarada bilərsiniz.

## Sol yaxud sağ seçim düyməsi

Qısa yolu sol yaxud sağ seçim düyməsinə təyin etmək üçün seçin **Menyu** > *Parametrlər* > *Qısa yollarım* > *Sol seçim düyməsi* yaxud *Sağ seçim düyməsi* və sonra funksiyanı seçin.

## Naviqasiya düyməsi

Əvvəlcədən təyin edilmiş siyahıdan olan digər telefon funksiyalarını naviqasiya düyməsinə təyin etmək üçün seçin **Menyu** > *Parametrlər* > *Qısa yollarım* > *Naviqasiya düyməsi*.

## Aktiv gözləmə düyməsi

Naviqasiya düyməsinə aktiv gözləmə rejiminə girişi təyin etmək üçün seçin **Menyu** > *Parametrlər* > *Qısa yollarım* > *Standby key (Gözləmə düyməsi)*.

## Səs komandaları

Səs komandaları sizə düymə basılmalarının yerinə funksiyaları əmrləriniz vasitəsilə həyata keçirmək imkanını verir. Səs komandaları dildən asılı deyil. Dili təyin etmək üçün bax *Səs tanınma dili*, “Telefon”, s. 36.

Səs komandaları ilə aktivləşən telefon funksiyalarını seçmək üçün **Menyu** > *Parametrlər* > *Qısa yollarım* > *Səs əmrləri* və qovluqu seçin. Funksiyaya tərəf diyirləyin. göstərir ki, səs yarlıqı aktivləşdirilib. Səs yarlıqını aktivləşdirmək üçün seçin **Əlavə et**. Aktivləşdirilmiş səs komandasını səsləndirmək üçün seçin **Çal**. Səs komandalarından istifadə etmək üçün bax “Təkmilləşdirilmiş səsli nömrə yığımı”, s. 19.

# ■ Qoşulma qabiliyyəti

Siz Bluetooth simsiz texnologiyasıdan və USB məlumat kabelindən istifadə edərək telefonu uyğun cihaza qoşa bilərsiniz. Siz həmçinin EGPRS dial-up bağlantıları üçün parametrləri təyin edə bilərsiniz.

## Bluetooth simsiz texnologiyası

Bu qurğu aşağıdakı profilləri dəstəkləyən Bluetooth Specification 2.0 + EDR ilə uyğundur: Ümumi giriş, şəbəkə girişi, ümumi obyekt mübadiləsi, hands-free, qulaqlıq, fəal çatdırılma, fayl ötürülməsi, kommutasiya şəbəkəsinin yaradılması, SIM kart girişi, şəxsi sahə şəbəkəsinin profili, xidmətin aşkarlanması xidmətinin profili, ümumi audio/video paylaşması, təkmilləşdirilmiş audio paylaşdırmasının profili, audio-video uzaq idarəetmə profili, ümumi audio/video paylaşmasının profili və seriya portu. Bluetooth texnologiyasını dəstəkləyən digər şəbəkələrlə qarşılıqlı əlaqəni təmin etmək üçün Nokia tərəfindən bu cihaz üçün təsdiq edilmiş aksesuarları istifadə edin. Digər qurğuların bu qurğuya uyğun olması və ya olmamasını müəyyən etmək üçün həmin qurğuların istehsalçıları ilə əlaqə saxlayın.

Müəyyən yerlərdə Bluetooth texnologiyasından istifadəsinə məhdudiyyətlər ola bilər. Bununla bağlı yerlı orqanlarla və ya xidmət provayderinizlə əlaqə saxlayın.

Bluetooth texnologiyasını istifadə edən elementlər və ya digər elementləri istifadə edərkən əsas kimi bu cür elementlərin istifadəsinə yol verən funksiyalar batareyanın enerjısınə tələbatı artırır və barateyanın istehlak müddətini azaldır.

Bluetooth texnologiyası 10 metrə (32 fut) qədər məsafədə telefona başqa bir Bluetooth-u dəstəkləyən cihazla əlaqə yarada biləcəyinə imkan yaradır. Bluetooth texnologiyasından istifadə edən cihazlar radio dalğalar vasitəsi ilə əlaqə saxladığına görə sizin telefon və digər cihazlar birbaşa görmə sahəsində olmaya da bilər, lakin əlaqə divarlar və digər elektrik cihazlar kimi maneələrdən müdaxiləyə məruz qala bilər.

Mühüm mesaj:

- Gizli rejimdə telefonun istifadəsi zərərli proqramlardan mühafizə olunmaq üçün ən etibarlı üsuldur.
- Etibar etmədiyiniz mənbələrdən Bluetooth əlaqəsini qəbul etməyin.
- Digər alternativ – Bluetooth funksiyasını söndürün. Bu, telefonun digər funksiyalarına təsir etməyəcək.

## Bluetooth əlaqəsini quraşdırmaq

Seçin **Menyu** > *Parametrlər* > *Bağlantı Bluetooth* və aşağıdakılardan:

*Bluetooth* — Bluetooth funksiyasını aktiv yaxud qeyri-aktiv etmək. Bluetooth bağlantısının aktiv olduqunu göstərir. Bluetooth texnologiyasını ilk dəfə aktiv etdidkə sizdən telefona ad vermək tələb olunur. Digərləri üçün müəyyən etmək üçün asan olan bir nadir ad seçin.

*Səs üçün artırmaları axtar* — uyğun olan Bluetooth audio cihazlarını axtarmaq üçün. Telefona qoşmaq istədiyiniz cihazı seçin.

*Cütlənmiş qurğular* — məsafədə mövcud olan istənilən Bluetooth cihazını axtarmaq üçün. Məsafədə mövcud olan istənilən Bluetooth cihazını siyahıda əks etdirmək üçün **Yeni** seçin. Cihazı və **Cüt** seçin. Cihazı telefonunuzla əlaqələndirmək (cütləşdirmək) üçün cihazın razılaşdıqınız Bluetooth keçid kodunu (16 işarəyə qədər) daxil edin. Siz bu keçid kodunu cihaza yalnız birinci dəfə qoşulduqda təqdim etməlisiniz. Telefonunuz cihaza qoşulur və siz məlumat ötürülməsini başlaya bilərsiniz.

## Bluetooth simsiz bağlantısı

Seçin **Menyu** > *Parametrlər* > *Bağlantı* > *Bluetooth*. Hansı Bluetooth bağlantısının hal-hazırda aktiv olduqunu yoxlamaq üçün seçin *Aktiv qurğular*. Telefonla hal-hazırda cütləşmiş Bluetooth cihazlarının siyahısını əks etdirmək üçün seçin *Cütlənmiş qurğular*.

## Bluetooth parametrləri

Telefonunuzun digər Bluetooth cihazlarına göstərildiyini təyin etmək üçün seçin **Menyu** > *Parametrlər* > *Bağlantı* > *Bluetooth* > *Telefonumun görsənməsi* yaxud *Mənim telefonumun adı*.

Əgər siz təhlükəsizlik barədə narahatsınızsa, Bluetooth funksiyasını söndürün və yaxud *Telefonumun görsənməsi* -ni *Gizlidir* göstəricisinə çevirin. Bluetooth əlaqəsini həmişə yalnız razılaşdıqınız şəxslərlərdən qəbul edin.

## Paket məlumatı

Ümumi paket radio xidməti (GPRS) mobil telefonlara məlumatı İnternet protokolu ilə (IP) göndərmələri və qəbulu üçün istifadə olunan bir şəbəkə xidmətidir.

Xidmətdən necə istifadə ediləcəyini müəyyən etmək üçün seçin **Menyu** > *Parametrlər* > *Balantı* > *Paket məlumat* > *Paket məlumat bağlantısı* və *aşağıdakılardan*:

*Ehtiyac olduqda* — proqramın ehtiyacı olduqda paket məlumatın qoşulmasını yaratmaq. Proqram sona çatdıqda qoşulma bağlanacaqdır.

*Həmişə onlayn* — telefonu işə saldıqda onun avtomatik olaraq paket məlumatı şəbəkəsinə qoşulmasını təyin etmək üçün

# Məlumat ötürülməsi

Təqviminiz, kontaktlarınız barədə məlumat və qeydlərinizi digər uyğun olan cihazla (məsələn, mobil telefon), uyğun kompyuter yaxud uzaq İnternet serveri ilə (şəbəkə xidməti) sinxronlaşdırın.

Sizin telefon onu SIM kartsız istifadə etdikdə uyğun olan kompyuter yaxud digər uyğun olan cihaz ilə məlumat ötürülməsinə imkan verir.

**Ötürmə kontaktların siyahısı**

Telefonunuzdan məlumatın surətini çıxarmaq və ya onu sinxronizasiya etmək üçün cihazın adı və parametrləri ötürmə kontaktların siyahısında olmalıdırlar. Əgər siz digər cihazdan (məsələn, uyğun olan mobil telefon) məlumat alırsınız, digər cihazdan kontakt barədə məlumatdan istifadə edərək müvafiq ötürülmə kontaktı siyahıya əlavə olunur. *Server sinx* və *Komp. sinx* siyahıda ilkin elementlərdir.

Siyahıya yeni ötürülmə kontaktını əlavə etmək üçün (məsələn, mobil telefon) seçin **Menyu** > *Parametrlər* > *Bağlantı* > *Məlumat köçür* > **Seçiml.** > *Əlaqə əlavə et* > *Telefon sinx* yaxud *Telefon surəti* və ötürülmə növünə uyğun olaraq parametrləri daxil edin.

Surəti redaktə etmək yaxud parametrləri sinxronlaşdırmaq üçün ötürülmə kontaktı siyahısından kontaktı və **Seçiml.** > *Redaktə et* seçin.

Ötürülmə kontaktını silmək üçün onu ötürülmə kontaktı siyahısından və **Seçiml.** > *Sil* seçin.

# Uyğun olan cihazla məlumat ötürülməsi

Sinxronlaşdırma üçün Bluetooth simsiz texnologiyasından yaxud kabel bağlantısından istifadə edin. Digər cihaz məlumatın qəbulu üçün işlək vəziyyətdə olmalıdır.

Məlumat ötürülməsini başlamaq üçün seçin **Menyu** > *Parametrlər* > *Bağlantı* > *Məlumat köçür* və *Server sinx* yaxud *Komp. sinx* fərqli olan ötürülmə kontaktını seçin. Parametrlərə uyğun olaraq seçilmiş məlumatın surəti çıxarılır və yaxud sinxronizasiya olunur.

# Uyğun kompyuterdən sinxronizasiya

Məlumatın təqvim, qeydlər və kontaktlardan sinxronizasiyasını keçirmək üçün sizin telefon üçün Nokia PC Suite proqram təminatını kompyuterdə quraşdırın. Sinxronizasiya üçün Bluetooth simsiz texnologiyadan və ya USB məlumat kabelindən istifadə edin və kompyuterdən sinxronizasiyaya başlayın.

# Serverdən sinxronizasiya

Uzaq İnternet serverdən istifadə etmək üçün sinxronlaşdırma xidmətinə abunə olun. Daha ətraflı məlumat və bu xidmət üçün tələb olunan parametrlər barəsində xidmət təminatçınızla əlaqə saxlayın. Parametrləri konfiqurasiya mesajı kimi qəbul edə bilərsiniz. Bax “Konfiqurasiya parametrlərinin xidməti”, s. 10 və “Konfiqurasiya”, s. 37.

Sinxronlaşdırmanı telefonunuzdan başlamaq üçün seçin **Menyu** > *Parametrlər* > *Bağlantı* > *Məlumat köçür* > *Server sinx*. Parametrlərdən asılı olaraq Sinxronlaşdırmanı başla yaxud Nüsxələməni başla seçin.

İlk yaxud kəsilmiş sinxronlaşdırmadan sonra sinxronlaşdırmanın bitirilməsinə 30 dəqiqəyə qədər vaxt sərf oluna bilər.

## USB məlumat kabeli

Siz USB məlumat kabelindən istifadə edərək telefon və uyğun olan kompyuter arasında məlumat ötürə bilərsiniz. USB məlumat kabelini həmçinin Nokia PC Suite ilə istifadə edə bilərsiniz.

Telefonu məlumat ötürülməsi və ya təsvir çapı üçün işlək vəziyyətə gətirmək məqsədi ilə məlumat kabelini qoşun. Təsdiq edin *USB məlumat kabeli qoşulub. Rejimi seçin.* və aşağıdakılardan seçin:

*Nokia rejimi* — telefonu Nokia PC Suite olan kompyuterdə proqramlarla əlaqənin təminatı üçün

*Çap və media* — telefonu Windows Media Player (musiqi, video) ilə sinxronlaşdırmaq üçün onu kompyuterə qoşmaq

*Məlumat saxlama* — Nokia proqram təminatına malik olmayan kompyuterə qoşulma və telefondan məlumatı saxlamaq üçün istifadə etmək

USB tərzini dəyişdirmək üçün **Menyu** > *Parametrlər* > *Bağlantı* > *USB məlm. kabeli* > *Nokia rejimi*, *Çap və media* və ya *Məlumat saxlama* seçin.

# ■ Zəng

Seçin **Menyu** > *Parametrlər* > *Zəng* və aşağıdakılardan:

*Zəng yönləndirməsi* — gələn zəngləri yönləndirmək üçün (şəbəkə xidməti). Əgər hər hansı zəng məhdudlaşdırılması funksiyası aktiv olarsa zəngləri yönləndirə bilməyəcəksiniz. Bax *Zəng. qadağ. xidməti* “Təhlükəsizlik”-də, səh. 37.

*Bütün düymələrlə cavab On* — işə salma düyməsi, kamera düyməsi, sol və sağ seçim düymələri və ya tamamlama düyməsi istisna olaraq istənilən düyməyə qısa basaraq daxil olan zəngi cavablamaq üçün

*Avto. təkrar zəng* — zəng bir dəfə alınmadıqdan sonra təkrar zəng etmək üçün 10 dəfəyə qədər cəhdlər

*Səsin təmizliyi* — nitqin aydınlığını, xüsusən səsli mühitlərdə gücləndirmək üçün seçin *Aktiv*

*Tez zəng On* — adlar və telefon nömrələri üçün təyin olunmuş sürətli nömrə yığımı düymələri ilə zəng etmək üçün **2** -dən **9** kimi müvafiq düyməni basın və saxlayın

*Gözləyən zəng xidməti* — cari zəng zamanı şəbəkənin sizi daxil olan zəng barədə bildirilməsi üçün (şəbəkə xidməti) seçin *Aktivləşdir*. Bax “Zəng gözləməsi”, səh. 19.

*Zəngdən sonra məlm* — hər bir zəngdən sonra zəngin müddətini və dəyərini (şəbəkə xidməti) qısa olaraq əks etdirmək

*Nömrəmi göndər* — zəng etdiyiniz şəxsin telefonunda telefonunuzun nömrəsinin görünməsi (şəbəkə xidməti). Xidmət təminatçınızla razılaşdığınız parametrdən istifadə etmək üçün seçin *Şəbəkə ilə qoş*.

*Answer when fold is opened (Qapaq açıq olduqda cavab ver)* — daxil olan zəngə qapaqı açmaqla cavab vermək.

# ■ Telefon

Seçin **Menyu** > *Parametrlər* > *Telefon* və aşağıdakılardan:

*Dil parametrləri* — telefonunuzun ekran dilini təyin etmək üçün seçin *Telefonun dili*. SIM kartınıza uyğun olaraq dili təyin etmək üçün seçin *Avtomatik*. Səsin yazılması üçün dili seçmək üçün seçin *Səs tanınma dili*. Bax “Təkmilləşdirilmiş səsli nömrə yığımı”, s. 19 və *Səs əmrləri* -ni “Qısa yollarım”, s. 31.

*Yaddaşın statusu* — istifadə edilmiş və boş yaddaşın həcminə baxmaq üçün

*Avtomatik klaviatur kilidi* — telefonunuzun klaviaturunu telefon gözləmə rejimində olduqu vəziyyətdə və heç bir funksiyanın çalışmadıqı zaman müəyyən edilmiş müddətdən sonra avtomatik olaraq kilidləndiyini təyin etmək üçün. Seçin *Aktivləşdir* və vaxtı qurun.

*Təhlükəsizlik klaviatur kilidi* — klaviaturun kilidini açdıqda telefonun sizdən təhlükəsizlik kodunu tələb etdiyini təyin etmək üçün. Təhlükəsizlik kodunu daxil edin və seçin *Aktivləşdir*.

*Salamlama* — telefon işə salındıqda ekranda görünəcək yazını yazmaq üçün

Telefon yenilikləri — yenilənənin mövcud olduqu halda telefonun proqram təminatını yeniləmək

*Operator seçimi* — telefonunuzun avtomatik olaraq mövcud mobil şəbəkələrdən birini seçməsi üçün *Avtomatik* seçin. *Əl ilə seçim* vasitəsilə xidmət təminatçınızla rouminq razılaşması olan şəbəkəni seçin.

*Yardım mətn. aktiv-si* — telefonun yardım mətnlərini göstərib-göstərməməsini seçmək üçün

*Başlanğıc melodiyası* — telefon işə salındıqda ton səsləndirir

*Qapaq bağlama ilə davranma* — gözləmə rejiminə qayıtmaqı yaxud qapaq bağlı olduqda bütün proqramların açıq qalmasını seçmək üçün

*Uçuş sorğusu* — telefon hər dəfə işə salındıqda uçuş profilindən istifadə edib-etməməsini soruşur. Bax “Uçuş rejimi”, səh. 18.

# ■ Aksessuarlar

Əgər telefon uyğun mobil aksesuara qoşulub və ya qoşulmuşdursa, aşağıdakı seçimlər göstərilir.

Seçin **Menyu** > *Parametrlər* > *Aksessuar.* Aksessuarı seçib və ona əsaslanaraq aşağıdakılardan seçin:

*Defolt rejim* — seçilmiş aksessuara qoşulduqda avtomatik aktivləşməsini istədiyiniz profili seçmək üçün

*Lights (İşıqlar)* — işıqları həmişəlik işlək saxlamaq üçün seçin *Aktivləşdir*. İşıqların düyməyə basılmadan sonra 15 saniyə sonra yanması üçün seçin *Avtomatik*.

# ■ Konfiqurasiya

Telefonunuzu müəyyən xidmətlərin düzgün işləməsi üçün tələb olunan parametrlərlə konfiqurasiya edə bilərsiniz. Sizin xidmət təminatçınız da bu parametrləri göndərə bilər. Bax “Konfiqurasiya parametrlərinin xidməti”, səh. 10.

Seçin **Menyu** > *Parametrlər* > *Configuration (Konfiqurasiya)* və aşağıdakılardan:

*Default configuration settings(Standart konfiqurasiya parametrləri)* — telefonda saxlanılmış xidmət təminatçılarını əks etdirmək üçün. Xidmət təminatçısının konfiqurasiya parametrlərini ilkin parametrlər kimi təyin etmək üçün seçin **Seçiml.** > *Defolt təyin et*.

*Activate default in all applications (Standartı bütün proqramlarda aktiv et)* — dəstəklənən proqramlar üçün standart konfiqurasiya parametrlərini aktivləşdirmək üçün

*Connect to service provider support (Xidmət təminatçısı dəstəyinə əlaqə yarat)* — xidmət təminatçısından konfiqurasiya parametrlərini yükləmək üçün

*Personal configuration settings* — müxtəlif xidmətlər üçün əl ilə yeni şəxsi hesabları əlavə etmək yaxud onları aktviləşdirmək və ya ləğv etmək üçün. Heç bir şəxsi hesabını əlavə etmədiyiniz halda yenisini əlavə etmək üçün **Y. əlavə**; yaxud seçin **Seçiml.** > *Yenisini əlavə et*. Bu parametrlər seçilmiş xidmət növünə görə fərqlənir.

# ■ Təhlükəsizlik

Zəngləri məhdudlaşdıran təhlükəsizlik funksiyaları (zənglərin qadağan edilməsi, bağlı istifadəçi qrupu yaxud müəyyən nömrələrin yığılması) hələ istifadə edildikdə siz telefonunuzda proqramlaşdırılmış rəsmi təcili yardım nömrələrinə zəng vura bilərsiniz.

Seçin **Menyu** > *Parametrlər* > *Təhlükəsizlik* və aşağıdakılardan:

*PIN kodun sorğulanması* — telefonu hər işəsalmada PIN kodu tələbedilməsi üçün qurmaq Bəzi SIM kartlar kod sorğusunun söndürülməsinə imkan vermir.

*PIN2 kodu sorğulanması* — PIN2 kodu ilə qorunan xüsusi telefon funksiyasından istifadə zamanı PIN2 kodunun tələb olunub-olunmamadıqını seçmək üçün. Bəzi SIM kartlar kod sorğusunun söndürülməsinə imkan vermir.

*Zənglərin qadağanolunması xidməti* — telefonunuza daxil olan və ondan gedən zəngləri məhdudlaşdırmaq üçün (şəbəkə xidməti). Qadağa parolu tələb olunur.

*Təyin olunmuş zənglər* — gedən zənglərinizi seçilmiş telefon nömrələrinə məhdudlaşdırmaq, əgər bu funksiya SIM kartınız tərəfindən dəstəklənir. Müəyyən nömrələrin yığılması aktiv olduqda, mesajların GPRS bağlantısı vasitəsilə göndərilməsi zamanı istisna olmaqla, GPRS bağlantıları mümkün deyil. Bu cür halda qəbuledənin telefon nömrəsi və mesaj mərkəzinin nömrəsi müəyyən nömrələrin yığılması sıyajısına daxil edilməlidir.

*Qapalı istifadəçi qrupu* — siz zəng edə biləcəyiniz və sizə zəng edə bilən şəxslərin qrupunu təyin etmək üçün (şəbəkə xidməti)

*Təhlükəsizlik səviyyəsi* — telefona hər dəfə yeni SIM kart daxil edildikdə onun təhlükəsizlik kodunu tələb edilməsini qurmaq üçün seçin *Telefon*. Əgər siz *Yaddaş* seçsəniz, telefon SIM kart yaddaşı seçildikdə təhlükəsizlik kodunu tələb edir və siz istifadə olunan yaddaşı dəyişmək istəyirsiniz.

*Giriş kodları* — təhlükəsizlik kodu, PIN kodu, PIN2 kodunu yaxud məhdudiyyət parolunu dəyişmək üçün

*İcazə sertifikatları yaxud İstifadəçi sertifikatları* — telefonunuza yüklənilmiş vəkalət yaxud istifadəçi sertifikatlarının siyahısını nəzərdən keçirmək üçün. Bax “Sertifikatlar”, səh. 48.

*Təhlükəsizlik modulu parametrləri* — təhlükəsizlik modulu parametrlərini nəzərdən keçirmək üçün seçin *Modul PIN sorğusu* yaxud modul PIN-ini və imza PIN-ini dəyişdirin. Həmçinin bax “Giriş kodları”, s. 10.

## ■ İstehsalçı parametrlərinin bərpası

Bəzi menyu parametrlərini ilkin göstəricilərinə yenidən qaytarmaq üçün seçin **Menyu** > *Parametrlər* > *Zvod prm. bər. et* > *Restore settings only (Yalnız parametrləri bərpa et)*. Təklükəsizlik kodunu daxil edin. Əgər siz təhlükəsizlik kodunu yaratmamısınızsa, telefon sizə bunu etmək üçün bildiriş təqdim edəcək. Kontaktlar-da saxlanılan adlar və telefon nömrələri silinmir.

# 8. Operator menyusu

Bu menyu şəbəkə operatoru tərəfindən təmin olunan xidmətlərə giriş imkanı verir. Ad və təsvir operatordan asılıdırlar. Daha ətraflı məlumat üçün şəbəkə operatorunuza müraciət edin.

Xidmət təminatçınızdan müxtəlif mövzular üzrə mesajları qəbul etmək üçün (şəbəkə xidməti) **Menyu** > *Mesajlar* > *Info messages (Məlumat mesajları)* seçin. Daha geniş məlumat almaq üçün Sizə xidmət göstərən müəssisə ilə əlaqə saxlayın.

**Menyu** > *Mesajlar* > *Serv. commands* xidmət təminatçınıza şəbəkə xidmətləri üçün aktivasiya komandaları kimi xidmət sorğuları (USSD komandaları) yazmaq və göndərmək üçün seçin.

# 9. Qalereya

Bu menyuda siz şəkilləri, video klipləri, musiqi faylları, mövzuları, qrafik təsvirləri, səs tonları, səs yazmaları və qəbul olunmuş faylları idarə edə bilərsiz. Fayllar telefon yaddaşında yaxud əlavə edilmiş microSD kartında saxlanılır və qovluqlarda yerləşdirilə bilər.

Sizin telefon qəbul olunan məzmunu qorumaq məqsədi ilə aktivasiya açarı sistemini dəstəkləyir. İstənilən məzmunun və aktivasiya açarın çatdırılma qaydalarını onların qəbulundan əvvəl həmişə yoxlayın çünki onlar ödənişli ola bilər.

Müəlliflik hüquqlarının mühafizəsi müəyyən şəkillərin, zəng siqnalları melodiyalarının və digər məzmunlu funksiyaların üzünün çıxarılmasına, dəyişdirilməsinə, köçürülməsinə və ya göndərilməsinə mane ola bilər

Qovluqların siyahısını görmək üçün seçin **Menyu** > *Qalereya*.

Qovluqda olan faylların siyahısını nəzərdən keçirmək üçün ilk öncə qovluqu və sonra **Aç** seçin.

Faylı köçürdükdə yaddaş kartının qovluqlarını nəzərdən keçirmək üçün yaddaş kartına tərəf diyirləyin və naviqasiya düyməsini sağa basın.

## ■ Şəkillərin çapı

XpressPrint

Sizin cihaz Nokia XpressPrint-ı dəstəkləyir. Telefonu uyğun olan printerə qoşmaq üçün məlumat kabelindən istifadə edin və ya şəkili Bluetooth vasitəsilə Bluetooth texnologiyasını dəstəkləyən printerə göndərin. Bax “Qoşulma qabiliyyəti”, səh. 32.

Siz JPG formatında olan şəkilləri çap edə bilərsiz. Kamera ilə çəkilən şəkillər avtomatik olaraq JPG formatında saxlanılır.

Çap eləmək istədiyiniz şəkli seçin və çap edin **Seçiml.** > *Çap et*.

# 10. Media

Şəkilləri yaxud videoklipləri çəkdikdə və istifadə etdikdə bütün qanunlara riayət edin və müəllif hüquqları da daxil olmaqla, yerli adətlərə, digər şəxslərin şəxsi işlərinə və qanuni hüquqlarına hörmət edin.

Siz quraşdırılmış 1,3 meqapikselli kamera ilə şəkillər çəkə və canlı videokliplər yaza bilərsiniz.

## ■ Kamera

Kamera şəkilləri JPEG və videoklipləri 3GPP formatında çəkir. Kamera linzası telefonun ön hissəsində yerləşir. Rəngli ekran görüntü axtarıcısı kimi çalışır.

### Şəkil çəkilişi

Görüntü axtarıcısını açmaq üçün seçin **Menyu** > *Media* > *Kamera*.

Kamera rejimində miqyası böyütmək və ya kiçiltmək üçün səs düymələrini yuxarı və ya aşağı basın.

Şəkil çəkmək üçün seçin *Çək* yaxud kamera düyməsini basın. Telefon şəkilləri yaddaş kartında saxlayır.

İşıqlanma zəif olduqu halda seçin **Seçiml.** > *Gecə rejimi yanır*.

Şəkilləri tez sıralama ilə çəkmək üçün seçin **Seçiml.** > *Şək. sıralama yanır.* Şəkilin ölçüsündən asılı olaraq üçdən səkkizə qədər şəkil çəkmək olar.

Şəkili dərhal çəkildikdən sonra göstərmək üçün **Seçiml.** > *Parametrlər* > *Şəkilə baxma vaxtı* və ilkin baxış vaxtını seçin. İlkin baxış zamanı digər şəkili çəkmək üçün **Geri** yaxud şəkili multimedia mesajı göndərmək üçün **Göndər** seçin.

Sizin telefon 1024 x 1280 piksel şəkil ölçülərini dəstəkləyir.

## Kamera və video seçimləri

Filtrdan istifadə etmək üçün seçin **Seçiml.** > *Effektlər* > *Normal*, *Greyscale (Boz)*, *Sepiya* yaxud *Neqativ*.

Kamera və video parametrlərini dəyişmək üçün seçin **Seçiml.** > *Parametrlər*.

# ■ Video

Siz video klipləri 3GP formatında çəkə bilərsiz. Mövcud olan yazılış vaxtı video klipin uzunluğundan və keyfiyyət parametrlərindən asılıdır.

Kliplərin uzunluğu və fayl həcmi seçilmiş keyfiyyətdən və mövcud olan yaddaş həcmindən asılı olaraq dəyişə bilər. Video kliplərin keyfiyyətini təyin etmək üçün seçin **Menyu** > *Media* > *Video* > **Seçiml.** > *Parametrlər* > *Videoklip keyfiyyəti* > *Yüksək, Normal* yaxud *Əsas*.

Fayl ölçüsü limitini seçmək üçün seçin **Menyu** > *Media* > *Video* > **Seçiml.** > *Parametrlər* > *Videoklip uzunluğu*. *İlkin* deməkdir ki, fayl ölçüsü multimedia mesajına əlavəedilməsində lazımi ölçüdə olduqu üçün məhdudlaşdırılıb (multimedia mesajının ölçüsü cihazlarda fərqli ola bilər). *Maksimum* deməkdir ki, bütün mövcud olan yaddaş istifadə olunur. Mövcud olan yaddaş videoklipin harada saxlanıldıqından asılıdır.

## Videoklip çəkmək

Seçin **Menyu** > *Media* > *Video* > *Yaz*. Siz həmçinin kamera düyməsini basıb saxlaya bilərsiniz. Yazılışda pauza etmək üçün seçin *Pauza*; yazılışı davam etdirmək üçün seçin *Continue (Davam et)*. Yazılışı dayandırmaq üçün seçin *Dayandır*. Telefon yazılışı *Qalereya* > *Videokliplər* -də saxlayır.

Miqyası böyütmək və ya kiçiltmək üçün səs ucaltma düyməsini yuxarı və ya aşağı basın yaxud sola və ya sağa diyirləyin.

# ■ Musiqi pleyeri

Sizin telefonda Nokia PC Suite proqramının bir hissəsi olan Nokia Audio Manager ilə telefonunuza köçürdüyünüz mahnılara, musiqi yazılarına və digər musiqi fayllarına qulaq asmaq üçün musiqi pleyeri var. Bax “Nokia PC Suite”, səh. 49.

Telefon yaxud yaddaş kartındakı qovluqda saxlanılan musiqi faylları avtomatik olaraq standart mahnı siyahısına əlavə olunur.

Musiqi pleyerini açmaq üçün seçin **Menyu** > *Media* > *Musiqi pleyeri.*

## Musiqini çalmaq

**Xəbərdarlıq:** Musiqiyə orta səs dərəcəsində qulaq asın. Davamlı yüksək səs dərəcəsində qulaq asmaq sizin eşitmə qabiliyyətinizə mənfi təsir edə bilər. Dinamik istifadə edildikdə cihazı qulağınıza yaxın tutmayın, çünki səs dərəcəsi çox yüksək ola bilər.

Musiqi pleyerini telefondakı yaxud ekrandakı virtual düymələr vasitəsilə idarə edin.

Musiqi pleyer menyusunu açanda, standart mahnı siyahısında birinci mahnının təfsilatları göstərilib. Mahnını səsləndirmək üçün seçin ▶.

Səs səviyyəsini tənzimləmək üçün telefonun yan tərəfində yerləşən səs düymələrindən istifadə edin.

Fasilə etmək üçün seçin ⏸.

Səsləndirməni dayandırmaq üçün tamamlama düyməsini sıxıb saxlayın

Sonrakı mahnıya keçmək üçün seçin ⏭. Sonrakı mahnının əvvəlinə keçmək üçün seçin ⏮.

Cari mahnını geriyə çəkmək üçün ⏮ seçin və sıxın. Cari mahnını irəliyə çəkmək üçün ⏭ seçin və sıxın. Düyməni istədiyiniz məqamda buraxın.

# ■ Diktofon

Siz nitq parçaları, səs və ya cari zəngi yaza bilərsiz və onları Qalereya-da saxlaya bilərsiz. Bu, adı və ya telefon nömrəni yazmaq üçün və sonra onları kağıza köçürmək üçün faydalıdır.

Məlumat zəngi və ya GPRS bağlantısı aktiv olduqda səsyazandan istifadə edilə bilməz.

## Səs yazılması

1. Seçin **Menyu** > *Media* > *Recorder (Diktofon).*

   Ekranda olan ●, ⏸ və ya ■ qrafik düymələrdən istifadə etmək üçün istədiyiniz düyməyə doğru fırladın və seçin.
2. Səsyazmanı başlamaq üçün seçin ●. Səsyazmanı zəng zamanı başlamaq üçün seçin **Seçiml.** > *Record (Yaz)*. Zəngi yazaraq bütün tərəflər zəif səs siqnalı eşidirlər. Zəngi yazaraq telefonu normal istifadə vəziyyətində qulağınıza yaxın yerləşdirin. Səsyazma zamanı fasilə etmək üçün seçin ⏸.
3. Səsyazmanı bitirmək üçün seçin ■. Səsyazma Qalereya-dakı > Səsyazmalar-da saxlanılır.

   Ən son səsyazmaya qulaq asmaq üçün seçin **Seçiml.** > *Son yazılanı çal.*

   Ən son səsyazmanı göndərmək üçün seçin **Seçiml.** > *Send last recorded.*

   Qalereya-da səsyazmaların siyahısına baxmaq üçün seçin **Seçiml.** > *Səsyazm. siyahısı* > *Səsyazmalar*.

## Ekvalayzer

Musiqi pleyeri vasitəsilə eşitdiyiniz bas tezliklərinin diapozonlarını dəyişmək üçün. Seçin **Menyu** > *Media* > *Equaliser (Ekvalayzer).*

Musiqi növünü gücləndirmək üçün nəzərdə tutulmuş dəsti işlək vəziyyətə salmaq üçün ekvalayzer dəstlərinin birinə doğru firladın və **Aktiv et** seçin.

## Stereo genişlənmə

Stereo genişlənmə daha geniş stereo səs effektini aktiv etməklə telefonun audio gücünü artırır. Parametri dəyişdirmək üçün seçin **Menyu** > *Media* > *Stereo genişlənmə.*

# 11. Orqanayzer

## Zəngli saat

Siz telefonun zəngli saatını istənilən vaxta qura bilərsiniz. Seçin **Menyu** > *Gündəlik* > *Zəngli saat.*

Zəngli saatı işlək vəziyyətə gətirmək üçün *Siqnal vaxtı* seçin və sonra zəngli saatın vaxtını daxil edin. Zəngli saat işlək vəziyyətə gətirilən zaman onun vaxtını dəyişdirmək üçün *Aktivləşdir* seçin.

Seçilmiş həftə günləri ərzində telefonunuzun zəngli saatının çalışmasını etmək üçün seçin *Təkrarlanan siqnal.*

Zəngli saat siqnalını seçmək üçün seçin *Siqnal melodiyası:*

Yuxu taymautunu təyin etmək üçün *Mürgüləmə fasiləsi* -ni və vaxtı seçin.

### Zəngli saatı dayandırmaq

Telefon zəngli saat söndürüldüyü halda belə zəng çalır. Zəngli saatı dayandırmaq üçün seçin **Dayan**. Əgər siz telefona bir dəqiqə ərzində zəngli saatın çalınmasına imkan versəniz və ya **Mürgülə**, seçsəniz, zəngli saat *Mürgüləmə fasiləsi* -da təyin etdiyiniz müddət ərzində dayanır və sonra yenidən zəng çalmağa başlayır.

## Təqvim

Seçin **Menyu** > *Gündəlik* > *Təqvim.*

Cari tarix çərçivə daxilində göstərilib. Əgər günə müəyyən qeydlər varsa, o gün aydın hərflərlə yazılır və qeydin əvvəli təqvimdən aşağıda göstərilir. Gündəlik qeydləri nəzərdən keçirmək üçün seçin **Göstər**. Həftəni nəzərdən keçirmək üçün seçin **Seçiml.** > *Həftəlik görünüş.* Təqvimdən bütün qeydləri pozmaq məqsədi ilə ilk növbədə ay və ya həftə görünüşünü seçin və sonra **Seçiml.** > *Bütün qeydləri* sil seçin.

Vaxt və tarix məlumatını dəyişdirmək üçün seçin *Parametrlər.*

Müəyyən olunmüş müddətdən sonra telefonun avtomatik olaraq köhnə qeydləri pozulmasını təyin etmək üçün seçin *Qeydləri avtomatik sil.*

## Təqvim qeydini etmək

Seçin **Menyu** > *Gündəlik* > *Təqvim.* Tarixə doğru fırladıb seçin **Seçiml.** > *Qeyd yarat* və aşağıdakı qeyd növləri: *Yaddaş qeydi,* *Görüş,* *Zəng,* *Ad günü,* *yaxud Memo.* Sahələri doldurun.

## Qeydlərin zəngli saatı

Telefon qeydi göstərir və əgər o seçilibsə, səs tonunu səsləndirir. Zəng qeydin köməyi ilə ekranda göstərilən nömrəyə zəng etmək üçün zəng düyməsini basın. Zəngli saatı dayandırmaq və qeydi nəzərdən keçirmək üçün seçin **View**. 10 dəqiqə müddətinə zəngli saatı dayandırmaq üçün seçin **Mürgülə**.

Zəngli saatı dayandırmaq və eyni zamanda qeydi nəzərdən keçirməmək üçün seçin **Çıx.**

# ■ İşlər siyahısı

Etməli olduqunuz tapşırıq üçün qeydi saxlamaq üçün seçin **Menyu** > *Gündəlik* > *Ediləcəklər siyah.*

Heç bir qeyd əlavə olunmadıqda qeydi yaratmaq üçün seçin **Əlavə et**. Boşluqları doldur və seç **Yaddaşa ver**.

Qeydi nəzərdən keçirmək üçün ona doğru fırladın və **View** seçin. Qeydi nəzərdən keçirərək siz əlamətləri redaktə edə bilərsiniz. Siz həmçinin seçilmiş qeydin və ya bütün bitirilmiş kimi nişanlanan qeydləri poza bilərsiniz.

# ■ Qeydlər

Qeydləri yazıb göndərmək üçün seçin **Menyu** > *Gündəlik* > *Qeydlər.* Heç bir qeyd əlavə olunmadıqda qeydi yaratmaq üçün seçin **Əlavə et**. Qeydi yazın və **Saxla** seçin.

# ■ Kalkulyator

Telefonunuzdakı kalkulyator əsas hesablama funksiyalarını təmin edir.

**Qeyd:** Bu kalkulyator məhdud dəqiqliyə malikdir və sadə hesablamalar üçün nəzərdə tutulmuşdur.

Seçin **Menyu** > *Gündəlik* > *Kalkulyator.* Ekranda 0 göstərildiyi halda hesablamada ilk rəqəmi daxil edin. Onluq kəsr nöqtəsi üçün **#** düyməsini basın. İstədiyiniz əməliyyata və ya funksiyaya doğru fırladın və yaxud onu **Seçiml.** -də seçin. İkinci rəqəmi daxil edin. Bu ardıcıllığı lazım olduğu qədər təkrar edin. Yeni hesablamanı başlamaq üçün ilk öncə **Sil** seçin və düyməni sıxın.

# ■ Əks istiqamət taymerı

1. Əks istiqamət taymerı işlək vəziyyətə gətirmək üçün seçin **Menyu** > *Gündəlik* > *Timer (Taymer)* > *Normal vaxtölçən,* zəngli saatın vaxtını daxil edin və vaxtın bitəcəyi halda ekranda göstərilən qeydi yazın. Əks istiqamət taymerın vaxtını dəyişmək üçün seçin *Vaxtı dəyiş.*
2. Taymerı işlək vəziyyətə gətirmək üçün seçin **Başla**.
3. Taymerı dayandırmaq üçün seçin *Taymer dayansın.*

### İnterval taymerı

1. 10 intervala qədər malik olan interval taymerını başlamaq üçün ilk növbədə intervalları daxil edin.
2. Seçin **Menyu** > *Gündəlik* > *Timer (Taymer)* > *Fasilə vaxtölçən.*
3. Taymerı işlək vəziyyətə gətirmək üçün seçin *Taymeri başlat* > **Başla**.

## ■ Saniyəölçən

Saniyəölçəndən istifadə edərək siz vaxtı, aralıq dövrləri yaxud dövrə vaxtını ölçə bilərsiniz. Vaxtın ölçülməsi zamanı siz telefonun digər funksiyalarından istifadə edə bilərsiniz.

Seçin **Menyu** > *Gündəlik* > *Saniyəölçən* və aşağıdakılardan:

*Split timing* — ara müddətləri təyin etmək üçün. Vaxt müşahidəsini başlamaq üçün seçin **Başla**. Hər dəfə ara müddətini əlavə etmək istədiyiniz halda **Ayır** seçin. Vaxt müşahidəsini dayandırmaq üçün seçin **Stop**.

Vaxt müşahidəsini yenidən başlamaq üçün seçin **Seçiml.** > *Başla.* Yeni vaxt əvvəlkinə əlavə olunur. Vaxtı yaddaşa yazılmadan ilkin vəziyyətə gətirmək üçün seçin *Yenidən qur.*

Ölçülmüş vaxtı yaddaşda saxlamaq üçün **Saxla**.

*Lap timing* — dövrə müddətini ölçmək üçün.

Saniyəölçənin arxa planda çalışmasını təyin etmək üçün tamamlama düyməsinə basın. Vaxtın ölçülməsini arxa planda əks etdirmək üçün *Davam et* seçin.

# 12. Əlavələr

Bu menyu sizə proqram və oyunlarınızı idarə etmək imkanını verir. Bu fayllar telefon yaxud microSD kartın yaddaşında saxlanılır.

## ■ Oyunu yaxud proqramı açmaq

Oyuna başlamaq üçün seçin **Menyu** > *Applications (Proqramlar)* > *Oyunlar.* İstədiyiniz oyuna doğru fırladın və seçin **Aç**. Proqramı açmaq üçün seçin **Menyu** > *Applications (Proqramlar)* > *Kolleksiya.* İstədiyiniz proqrama doğru fırladın və seçin **Aç**.

## ■ Bəzi proqram seçimləri

*Versiyanı yenilə* — proqramın yeni versiyasının mövcudluğunu və İnternet -dən yüklənilməsini yoxlamaq üçün (şəbəkə xidməti)

*Veb səhifəsi* — İnternet səhifəsindən proqram üçün əlavə məlumatı, mövcud olduğu halda, təmin etmək üçün (şəbəkə xidməti)

*Proqram girişi* — proqramın şəbəkəyə girişini məhdudlaşdırmaq üçün

## ■ Proqramı yükləmək

Sizin telefon J2ME Java proqramlarını dəstəkləyir. Proqramı yükləməzdən əvvəl onun sizin telefonla uyğunluq təşkil etdiyinə əmin olun.

**Zəruri məlumat:** Yalnız Symbian Signed və ya Java Verified™ yoxlamasından keçən proqramlar kimi etibar etdiyiniz və zərərli proqramlara qarşı müvafiq təminat təklif edən qoşma proqramları yükləyin və istifadə edin.

Siz yeni Java proqram və oyunları bir sıra üsullarla yükləyə bilərsiniz.

Proqramları telefonunuza yükləmək üçün PC Suite-da olan Nokia Application Installer-dən yaxud seçin **Menyu** > *Applications (Proqramlar)* > **Seçiml.** > *Yükləmələr* > *Proq. yükləmələri;* mövcud əlfəcinlərin siyahısı əks olunur. Bax “Əlfəcinlər”, səh. 46.

Mövcudluq və tariflər barədər xidmət təminatçınıza müraciət edin.

# 13. SIM xidmətləri

Sizin SIM kart istifadə edə biləcəyiniz əlavə xidmətləri təmin edə bilər. Bu menyuya yalnız sizin SIM kart tərəfindən dəstəkləndikdə daxil ola bilərsiniz. Menyunun adı və məzmunu mövcud olan xidmətlərdən asılıdır. Bu xidmətlərə giriş pullu xidmət olan mesajların göndərilməsini və ya telefon zənglərin edəcəyini nəzərdə tuta bilər.

# 14. İnternet

Telefonunuzun brauzeri ilə siz müxtəlif mobil İnternet xidmətlərindən yararlana bilərsiniz.

**Zəruri məlumat:** Yalnız etibar etdiyiniz və zərərli proqramlara qarşı müvafiq təminat təklif edən xidmətləri istifadə edin.

Mövcudluq, tariflər və təlimatlar barədər xidmət təminatçınıza müraciət edin.

Telefonun brauzerı ilə siz səhifələrində simsiz nişanlama (WML) və ya genişlənən qipermətn nişanlama (XHTML) dillərindən istifadə edən xidmətləri nəzərdən keçirə bilərsiz. Görünüş ekranın ölçüsündən asılı olaraq fərqlənə bilər. Siz, ola bilər, İnternet səhifələrin bütün təfsilatlarını nəzərdən keçirə bilməyəcəksiniz.

## ■ Xidmətə qoşulmaq

Xidmətin düzğün konfiqurasiya parametrlərin işlək vəziyyətdə olduqlarını yoxlayın.

Xidmətə qoşulması üçün parametrləri seçmək üçün:

1. Seçin **Menyu** > *İnternet* > *Parametrlər* > *Configuration settings (Konfiqurasiya parametrləri)*
2. Seçin *Konfiqurasiya*. Yalnız brauzerin xidmətini dəstəkləyən konfiqurasiyalar göstərilir. Xidmət təminatçısını *Defolt*, və ya *Şəxsi konfiq*. İnternet səhifələrinə baxmaq üçün seçin.

   İnternet səhifələrin nəzərdən keçirilməsi üçün tələb edilən konfiqurasiya parametrlərini siz xidməti təmin edən xidmət təminatçısından konfiqurasiya mesajı vasitəsilə ala bilərsiniz.
3. *Hesab* və işlək vəziyyətdə olan konfiqurasiya parametrlərində yerləşən İnternet səhifələrini nəzərdən keçirilməsinin adını seçin.
4. İntranet qoşulmaların qeyri avtomatik istifadəçi təsdiqləməsini həyata keçirmək üçün seçin *Display terminal window (Terminal pəncərəsini göstər)* > *Bəli*.

Xidmətə qoşulmanı aşağıdakı üsullardan biri ilə həyata keçirin:

- Seçin **Menyu** > *İnternet* > *Ev;* və ya gözləmə rejimində olarkən **0** düyməsini basın və saxlayın.
- Xidmət əlfəcini üçün seçin **Menyu** > *İnternet* > *Əlfəcinlər.*
- Ən son istifadə olunan İnternet ünvanı (URL) üçün seçin **Menyu** > *İnternet* > *Son veb ünvanı.*
- Xidmət ünvanının daxilolunması üçün seçin **Menyu** > *İnternet* > *Ünvana get.* Xidmət ünvanını daxil edin və seçin **OK**.

## ■ Əlfəcinlər

Siz İnternet ünvanlarını telefonun yaddaşında əlfəcinlər kimi saxlaya bilərsiz.

1. İnternet səhifələrini nəzərdən keçirərək seçin **Seçiml.** > *Əlfəcinlər.*
2. Əlfəcinə doğru fırladın və onu seçin yaxud zəng düyməsini basaraq əlfəcinə məxsus olan səhifəyə keçin.
3. Əlfəcini nəzərdən keçirmək, redaktə etmək, pozmaq və ya göndərmək, yeni əlfəçini yaratmaq yaxud əlfəcini qovluqda saxlamaq üçün seçin **Seçiml**.

## ■ Görünüş parametrləri

İnternet səhifələrinin telefonunuzda necə əks olunacaqını şəxsiləşdirmək üçün İnternet səhifələrini nəzərdən keçirərək seçin **Seçiml.** > *Digər seçimlər* > *Appear. settings (Görünt. param.).*

## ■ Təhlükəsizlik parametrləri

### Kukilər və keş

Kuki İnternet saytın telefonunuzun keş yaddaşında saxladığı məlumatdır. Kukilər keş yaddaşını pozana qədər saxlanılır.

İnternet səhifələrini nəzərdən keçirərək seçin **Seçiml.** > *Digər seçimlər* > *Təhlükəsizlik* > *Kuki parametrləri.* Telefona kukilərin qəbulunu icazə və ya qadağan etmək üçün *İcazə ver* və ya *Rədd et* seçin.

Keş məlumatın müvəqqəti mühafizə edilməsi üçün istifadə edilən yaddaş yeridir. Əgər siz parol tələb edən məxfi məlumata çıxmağa cəhd göstərmişsinizsə və ya çıxmışsınızsa hər istifadədən sonra keş yaddaşı təmizləyin. Sizin çıxdığınız məlumat və ya xidmət keş yaddaşında mühafizə edilir. Keşi boşaltmaq üçün seçin **Seçiml.** > *Digər seçimlər* > *Keşi sil.*

## Təhlükəsiz qoşulma üzrə skriptlər

Siz təhlükəsiz səhifədən skriptlərin çalışmasına icazəni seçə bilərsiz. Telefon WML skriptlərini dəstəkləyir.

İnternet səhifələrini nəzərdən keçirərək skriptlərə icazə vermək üçün seçin **Seçiml.** > *Digər seçimlər* > *Təhlükəsizlik* > *Kuki parametrləri.*

# ■ Gələn xidmət məktubların qutusu

Telefon sizin xidmət təminatçınız tərəfindən göndərilən xidmət mesajlarını qəbul edə bilər (şəbəkə xidməti). Xidmət mesajları bildirişlərdir (məsələn, xəbər başlıqları) və onlar mətn mesajı və ya xidmətin ünvanını cəmləşdirə bilər.

*Servis poçtu*-a gözləmə rejimində daxil olmaq üçün, xidmət mesajını qəbul edərək, seçin **Göstər**. Əgər siz **Çıx**, seçsəniz, mesaj Servis poçtu-na köçürülür. Service poçtu-na sonradan daxil olmaq üçün seçin **Menyu** > *İnternet* > *Servis poçtu.*

## Gələn xidmət mektubların qutusu parametrləri

Seçin **Menyu** > *İnternet Parametrlər* > *Servis poçtu parametrləri.*

Mesajları qəbul etmək istəyib-istəməməyinizi təyin etmək üçün seçin *Servis mesajları* > *Aktivləşdir* yaxud *Ləğv et.*

Telefonu yalnız xidmət təminatçısı tərəfindən təsdiqlənmiş məzmun müəlliflərinin mesaj qəbulu üçün qurmaq üçün seçin *Mesaj filtri* > *Aktivləşdir*. Təsdiqlənmiş məzmun müəlliflərinin siyahısını nəzərdən keçirmək üçün seçin *Etibarlı kanallar*.

Telefonu xidmət mesajını aldıqda gözləmə rejimindən avtomatik olaraq brauzeri aktivləşdirmək üçün seçin *Avtomatik bağlantı* > *Aktivləşdir.* Əgər siz *Ləğv et* seçsəniz telefon xidmət mesajını aldıqı zaman brauzeri yalnız **Gətir** seçdiyinizdən sonra açır.

# ■ Brauzer təhlükəsizliyi

Şəbəkə daxilində bank əməliyyatları və ya alış-veriş kimi müəyyən xidmətlər üçün təhlükəsizlik xüsusiyyətləri tələb olunur. Bu növ qoşulmalar üçün sizə təhlükəsizlik sertifikatları və, ola bilsin ki, SIM kartınızda mövcud olan təhlükəsizlik modulu tələb oluna bilər. Daha geniş məlumat almaq üçün sizə xidmət göstərən müəssisə ilə əlaqə saxlayın.

# Təhlükəsizlik modulu

Təhlükəsizlik modulu brauzer bağlantısını tələb edən proqramlar üçün təhlükəsizlik xidmətlərini yaxşılaşdırır və sizə rəqəmli imzadan istifadə imkanını verir. Təhlükəsizlik moduluna sertifikatlar və həmçinin şəxsi və açıq açarlar daxil ola bilər. Sertifikatlar xidmət təminatçısı tərəfindən təhlükəsizlik modulunda saxlanılır.

Təhlükəsizlik modulu parametrlərinə baxmaq və ya onları dəyişdirmək üçün, seçin **Menyu** > *Parametrlər* > *Təhlükəsizlik* > *Təhlükəsizlik modulu parametrləri.*

# Sertifikatlar

**Zəruri məlumat:** Sertifikatların istifadəsi uzaq məsafəli birləşmələrdə və proqramların yüklənməsində yaranan riskləri əhəmiyyətli dərəcədə azaltmasına baxmayaraq, bu sertifikatlar təkmilləşdirilmiş təhlükəsizlikdən daha çox faydalanmaq üçün düzgün istifadə edilməlidir.

Sertifikatın mövcudluğu özü-özlüyündə qorunmanı təmin etmir; sertifikatı idarə edən proqramda daha təkmilləşdirilmiş təhlükəsizlik üçün düzgün, orijinal və ye etibarlı sertifikatlar olmalıdır. Sertifikatlar məhdud istifadə müddətinə malikdir. Əgər sertifikatınız qüvvədə olmalı zaman “Expired certificate” və ya “Certificate not valid yet” göstərilirsə cihazınızda qurulmuş tarixin va vaxtın düzgün olmasını yoxlayın.

Sertifikat parametrlərini dəyişdirməzdən əvvəl siz əmin olmalısınız ki, siz həqiqətən sertifikatın sahibinə etibar edirsiniz və sertifikat həqiqətən siyahıda olan sahibə məxsusdur.

Sertifikatların üç növü mövcuddur: server sertifikatları, vəkalət sertifikatları və istifadəçi sertifikatları. Siz bu sertifikatları xidmət təminatçınızdan qəbul edə bilərsiniz. Vəkalət və istifadəçi sertifikatları da həmçinin xidmət təminatçınız tərəfindən təhlükəsizlik modulunda saxlanıla bilər.

Telefonunuza yüklənilmiş vəkalət və ya istifadəçi sertifikatlarının siyahısını nəzərdən keçirmək üçün seçin **Menyu** > *Parametrlər* > *Təhlükəsizlik* > *İcazə sertifikatları* və ya *İstifadəçi sertifikatları.*

işarəsi telefon və məzmun serveri arasında olan məlumatın ötürülməsi şifrə olunduğu halda ekranda göstərilir.

Təhlükəsizlik işarəsi şəbəkə ilə məzmun serveri (və ya tələb olunan mənbənin saxlanıldığı yer) arasında məlumatın ötürüməsinin təhlükəsiz olduğunu göstərmir. Şəbəkə ilə tərkib serveri arasında məlumatın ötürülməsinin təhlükəsizliyi xidmət provayderi tərəfindən təmin edilir.

# Rəqəmli imza

SIM kartınızda təhlükəsizlik modulu olduğu halda siz telefonunuzun köməyi ilə rəqəmli imzalar yarada bilərsiz. Rəqəmli imzanın istifadəsi adınızı kağızda yazılan hesab, müqavilə və digər sənədə imza etdiyiniz kimi ola bilər.

Rəqəmli imzanı yaratmaq üçün səhifədə linki seçin, məsələn, almaq istədiyiniz kitabın adı və onun qiymətini. Miqdarı və tarixi cəmləşdirə bilən imza olunmalı mətn göstərilir.

Başlıq mətninin *Oxu* olduqunu və rəqəmli imza işarəsi olan göstərildiyini yoxlayın.

**Qeyd:** Rəqəmli imza işarəsinin peyda olmaması təsdiq edir ki, təhlükəsizliklə bağlı qaydalara əməl edilməmişdir və siz imza PIN-i kimi şəxsi məlumatı daxil etməməlisiniz.

Mətni imzalamaq üçün ilk növbədə bütün mətni oxuyun və seçin **İmzala.**

Mətn ekranın bir səhifəsinə yerləşməyə bilər. Bu səbəbdən, mətni imzalamaqdan əvvəl mətni fırladaraq mütləq bütün mətni oxuyun.

İstifadə etmək istədiyiniz istifadəçi sertifikatını seçin. İmza PIN-ini daxil edin. Rəqəmli imza işarəsi yox olur və xidmət sizin alışınız barədə təsdiqi göstərə bilər.

# 15. Kompyuterə qoşulma qabiliyyəti

Sizin telefonunuz və kompyuter arasında Bluetooth və ya məlumat kabel vasitəsi ilə qoşulma zamanı siz elektron poçt göndərə və qəbul edə və İnternetə girişdən istifadə edə bilərsiniz. Telefonunuzu müxtəlif kompyuter əlaqələri və məlumat kommunikasiya proqramları ilə istifadə edə bilərsiniz.

## ■ Nokia PC Suite

Nokia PC Suite vasitəsilə telefonunuz və uyğun kompyuter və ya uzaq İnternet server arasında kontaktları, təqvimi, qeydləri və işlərin siyahısında qeydləri sinxronizasiya edə bilərsiniz (şəbəkə xidməti). PC Suite proqramı və daha ətraflı məlumat üçün Nokia-nın www.nokia.com/support və ya yerli Nokia İnternet saytlarında müraciət edin.

## ■ Paket məlumatı, HSCSD və CSD

Telefonunuz vasitəsilə siz paket məlumatı, məlumatın kommutasiya olunan kanallarla yüksək sürətli ötürülməsi (HSCSD) və məlumatın kommutasiya olunan kanallarla ötürülməsi (CSD, GSM məlumatı) məlumat xidmətlərindən istifadə edə bilərsiniz. Məlumat xidmətlərinə abunə olmaq və bu imkanlardan istifadə etmək üçün şəbəkə operatoru və ya xidmət təminatçınızla əlaqə saxlayın. HSCSD xidmətlərindən istifadə adi səs və məlumat zənglərindən fərqli olaraq telefon batareyasının daha çox gücünü sərf edir.

## ■ Bluetooth

Uyğun olan noutbukunuzu İnternetə qoşmaq üçün Bluetooth texnologiyasından istifadə edin. Sizin telefonuz İnternetə qoşulmanı təmin edən xidmət təminatçısını aktiv etməli və sizin kompyuteriniz Bluetooth texnologiyasının ŞSD-ni (şəxsi sahə şəbəkəsinin profili) dəstəkləməlidir. Telefonun şəbəkə giriş nöqtəsi (ŞGN) xidmətinə qoşulduqdan və sizin kompyuterlə cütləşdikdən sonra sizin telefon avtomatik olaraq İnternetə məlumat qoşulma paketini açır. Telefonun ŞGN xidmətindən istifadə zamanı PC Suite proqram təminatının quraşdırılması lazım deyil. Bax “Bluetooth simsiz texnologiyası”, s. 32.

## ■ Məlumat ötürülməsi proqramları

Məlumat ötürülməsi proqramının istifadəsinə dair məlumat üçün məhsulun sənədləşməsinə baxın. Kompyuter əlaqəsi zamanı zəng etmək və ya zəng qəbul etmək tövsiyə olunmur, çünki bu əməliyyatı poza bilər.

Məlumat zəngləri zamanı telefonun daha yaxşı işləməsi üçün, onu klaviaturası üzüyuxarı olmaqla sabit səth üzərində yerləşdirin. Məlumat zəngi zamanı telefonu əlinizdə saxlayaraq tərpətməyin.

# 16. Batareya və adapter barədə məlumat

Sizin cihaz təkrar doldurulan batareya ilə təchiz edilmişdir. Bu cihazla istifadəsi nəzərdə tutulan batareya BL-5C-dır. Bu cihaz üçün aşağıdakı adapterlər nəzərdə tutulmuşdur: AC-3U, AC-4U yaxud AC-5U. Batareya yüzlərlə dəfə doldurula və boşaldıla bilər lakin vaxt keçdikcə batareya köhnəlir. Danışmaq və gözləmə rejimlərinin vaxtı normal vaxtdan qısadırsa batareyanı dəyişin. Yalnız Nokia tərəfindən təsdiq edilmiş batareyaları istifadə edin və batareyanızın doldurulması üçün yalnız Nokia tərəfindən təsdiq edilmiş bu telefon üçün nəzərdə tutulmuş batareya dolduran qurğuları istifadə edin. Təsdiq edilməyən batareya və ya adapterin istifadəsi yanğın, partlayış, sızma və ya digər təhlükələr yarada bilər.

Batareya ilk dəfə istifadə edilərkən və ya batareya uzun müddət istifadə edilmədikdə enerji qurğusunu cihaza birləşdirmək, sonra ayırmaq və batareyanın doldurulmasının başlanması üçün təkrar birləşdirmək tələb oluna bilər. Batareya tam boşaldıqda ekranda batareyanın doldurulması indikatorunun peyda olması və ya zəng edilməsi üçün bir neçə dəqiqə tələb oluna bilər.

Batareyanı çıxararkən həmişə cihazı söndürün və enerjı qurğusundan ayırın.

Adapter istifadə edilmədikdə, onu elektrik rozetkadan və telefondan ayırın. Tam doldurulmuş batareyanı dolduran qurğuya birləşmiş saxlamayın, çünki normadan artıq batareyanın doldurulması onun istehlak müddətini qısalda bilər. İstifadə edilmədikdə tam doldurulmuş batareya enerjisini vaxt keçdikcə itirir.

Həmişə batareyanı 15 və 25 °C arasında olan hərarət dərəcəsində saxlamağa çalışın). Kəskin temperaturlar batareyanın fəaliyyətini və ömrünü azaldır. Batareyası isti və ya soyuq olan cihaz qaydasında işləməyə bilər. Batareyanın iş keyfiyyəti donma nöqtəsindən aşağıda olan dərəcələrdə xüsusilə məhdud olur.

Batareyanın qısa qapanmasına yol verməyin. Təsadüfi qısa qapanma dəmir pul, sıxac, və ya qələm kimi metal əşyalar birbaşa batareyanın müsbət (+) və mənfi (-) terminalları ilə əlaqədə olduqda baş verə bilər. (Bu batareyanın üzərində metal zolaqlar kimi görsənir.) Bu, misal üçün, ehtiyat batareyasını cibinizdə və ya pul kisəsində gəzdirdikdə baş verə bilər. Terminalların qısa qapanması batareyaya və ya əlaqədə olan əşyaya zərər verə bilər.

Partlamağa səbəb ola biləcəyi üçün batareyaları oda atmayın. Batareyalar zədələndikdə də partlayışa səbəb ola bilər. Batareyaları yerli qaydalara müvafiq olaraq məhv edin. Mümkün olduqda batareyanı başqa məqsəd üçün istifadə edin. Ev tullantısı kimi atmayın.

Batareyaları sökməyin, kəsməyin, açmayın, vurmayın, deformasiya etməyin, əyməyin, deşməyin və s. Əgər batareyadan maye axsa, bu surətdə mayenin dəri, və gözlərinizə dəyməsinə imkan verməyin. Bu baş verdiyi halda isə dəri, və ya gözlərinizi dərhal su ilə yuyun, ya da tibbi yardım axtarın.

Batareyaya kənar əşyaları daxil etməyin, batareyanı təmir etməyin, suya və ya digər mayelərə salmayın.

Batareyanın düzgün istifadə edilməməsi yanğın, partlayış və ya digər təhlükələrə səbəb ola bilər. Əgər cihaz və ya batareya sərt yerə düşsə və siz batareyanın zədələndiyinə əmin olsanız, istifadə etmədən onu servis mərkəzinə apararaq yoxladın.

Batareyanı yalnız müvafiq məqsəd üçün istifadə edin. Heç vaxt zədələnmiş batareya və ya batareyanı dolduran qurğu istifadə etməyin. Onları kiçik uşaqların əli çatmadığı yerdə saxlayın.

# ■ Nokia batareyasının identifikasiyası qaydaları

Təhlükəsizliyiniz üçün həmişə Nokia batareyalarını istifadə edin. Orijinal Nokia batareyasını aldığınıza əmin olmaq üçün onu səlahiyyətli Nokia dilerindən alın və aşağıdakı addımları izləyərək holoqramı yoxlayın:

Bütün addımların müvəffəqiyyətli tamamlanması batareyanın orijinallığının tam təsdiqi deyil. Əgər batareyanın orijinal Nokia batareyası olduğuna dair sizdə şübhə varsa, siz onu istifadə etməkdən çəkinməli və yardım üçün yaxınlığınızda olan səlahiyyətli Nokia xidmət şəbəkəsinə və ya dilerinə müraciət etməlisiniz. Səlahiyyətli Nokia xidmət şəbəkəsi və ya dileri batareyanın orijinallığını yoxlayacaq. Batareyanın orijinallığı təsdiq edilmədikdə onu aldığınız yerə qaytarın.

**Orijinal holoqram**




1. Etiketdə olan holoqrama baxarkən siz bir bucaqdan Nokianın birləşdirən əllər simvolunu, digər bucaqdan isə Nokia Orijinal Aksesuarlar loqosunu görməlisiniz.




2. Holoqramı sol tərəfə əydikdə siz hər tərəfdə müvafiq olaraq 1, 2, 3 və 4 nöqtə görməlisiniz.

**Batareyanız orijinal deyilsə?**

Əgər siz batareyanın orijinal Nokia batareyası olduğunu etiketdə olan hologramla təsdiq edə bilmirsinizsə, batareyanı istifadə etməyin. Həmin batareyanı yardım üçün yaxınlığınızda olan Nokia şəbəkə xidmətinə və ya dilerinə aparın. Istehsalçı tərəfindən təsdiq edilməmiş batareyanın istifadəsi təhlükəli ola bilər və sizin cihazınıza və onun aksesuarlarına zərər verə bilər. Həmçinin bu hal cihaza tətbiq edilən hər hansı təsdiq və zəmanətin də qüvvədən düşməsinə səbəb ola bilər.

Orijinal Nokia batareyaları haqqında daha ətraflı məlumat üçün bax www.nokia.com/battery.

# Baxım və texniki xidmət

Sizin cihaz əla keyfiyyətli dizayn və sənətkarlıq məhsuludur və ehtiyatla qorunmalıdır. Aşağıda göstərilən təkliflər zəmanətin əhatə etdiyi sahələrin qorunmasına yardım edəcək.

- Cihazı quru saxlayın. Çöküntü, nəmlik və bütün növ maye və rütubətin tərkibində eletron sxemlərin korroziyasına səbəb ola biləcək minerallar ola bilər. Cihazınız yaş olduqda batareyanı çıxarın və onu yenidən yerinə yerləşdirənə qədər cihazın tam qurumasını təmin edin.
- Cihazı tozlu, çirkli yerlərdə istifadə etməyin. Onun ayrıla bilən hissələri və elektron komponentləri zədələnə bilər.
- Cihazı isti yerdə saxlamayın. Yüksək temperatur elektron cihazların istehlak müddətini qısaldır, batareyaları zədələyir və müəyyən plastik hissələri əyir və ya əridir.
- Cihazı soyuq yerdə saxlamayın. Cihaz normal temperatura qayıtdıqda cihazın içində nəmlik yarana bilər bə bunun nəticəsində elektron sxemlərin plataları zədələnə bilər.
- Cihazı yalnız bu təlimatda göstərilən qaydada açın.
- Cihazı yerə salmayın, taqqıldatmayın və ya silkələməyin. Kobud rəftar daxili montaj platasını və dəqiq mexanika elementlərini qıra bilər.
- Cihazın təmizlənməsi üçün sərt kimyəvi preparatları, təmizləyici həllediciləri və ya güclü tozları istifadə etməyin.
- Cihazı rəngləməyin. Rəng hərəkət edən hissələri tıxaya və müvafiq əməliyyatlara mane ola bilər.
- Kamera, yaxınlaşdırıcı qurğu, və fotodetektor linzaları kimi optik şüşələrin təmizlənməsi üçün yumşaq, quru parça istifadə edin.
- Yalnız təchiz və ya təsdiq edilmiş əvəzedici antenaları istifadə edin. Qadağan edilmiş antenaların, modifikasiyaların və ya aksessuarların istifadəsi sizin cihazı zədələyə bilər və radio cihazlarının istifadəsini tənzimləyən qaydaların pozulmasına səbəb ola bilər.
- Batareyanı bağlı otaqda doldurun.
- Cihazınızı xıdmət şəbəkəsinə göndərdikdə həmişə saxlamaq istədiyiniz məlumatın (əlaqələr və təqvim qeydləri kimi) surətini çıxarın.
- Optimal işləməsi üçün qurğunun vaxtaşırı yenidən quraşdırılması məqsədilə onu söndürün və batareyanı çıxardın.

Yuxarıda göstərilən bütün təkliflər eyni dərəcədə sizin cihazınıza, batareyaya, batareya doludran qurğuya və ya hər hansı aksessuara şamil edilir. Hər hansı cihaz düzgün işləmədikdə onu təmir üçün yaxınlıqda yerləşən səlahiyyətli xidmət şəbəkəsinə aparın.

**Utilizasiya**

Məhsulun, sənədlərin və ya qablaşdırmanın üzərində olan üstündən xətt çəkilmiş təkərli zibil yeşiyi işarəsi sizə xatırladır ki, Avropa Birliyində bütün elektrik və elektron məhsullar, batareyalar və akkumulyatorlar istifadə müddəti bitdikdən sonra utilizasiya üçün təhvil verilməlidir. Bu məhsulları çeşidləndirilməmiş bələdiyyə tullantılarının arasına yerləşdirməyin.

Məhsulları toplanma yerlərinə qaytararaq siz nəzarətsiz tullantıların qarşısını alırsınız və materialların yenidən istifadəsinə kömək edirsiniz. Ətraflı məlumatı pərakəndə satıcıdan, yerli bələdiyyələrdən, milli istehlakçılardan, hakimiyyət orqanlarından və ya yerli Nokia nümayəndəliyindən əldə edə bilərsiniz. Məhsulun Eko-Bəyannaməsi ilə və ya məhsulunuzu qaytarmaq üçün təlimatlarla bağlı www.nokia.com ünvanından ölkənizə aid məlumatlara baxın.

# Təhlükəsizliklə bağlı əlavə məlumat

## ■ Azyaşlı uşaqlar

Sizin cihazda və aksessuarlarda xırda hissələr ola bilər. Onları kiçik uşaqların əli çatmadığı yerdə saxlayın.

## ■ Əməliyyat mühiti

RT şüalarına məruz qalma təlimatlarına əsasən cihazı normal olaraq qulağa tutmaq və ya bədəndən ən azı 2,2 santimetr (7/8 düym) uzaqda saxlamaq lazımdır. Bədən üzərində daşınmaq üçün diplomat, kəmər sıxacı və tutacaq istifadə edilirsə bu əşyalarda metal olmamalı və cihaz bədəndən yuxarıda qeyd edilən məsafədə yerləşdirilməlidir.

Məlumat fayllarını və ya mesajları göndərmək üçün bu cihaz şəbəkə ilə keyfiyyətli əlaqəni tələb edir. Müəyyən hallarda belə əlaqə təmin edilməyincə faylların və ya mesajların göndərilməsi ləngidilə bilər. Məlumatın göndərilməsi bitənə qədər əmin olun ki, yuxarıda göstərilən ayırma məsafəsinə riayət edilir.

## ■ Tibbi cihazlar

Radio ötürücü avadanlığın, o cümlədən simsiz telefonların işlədilməsi qeyri-müvafiq mühafizə edilən tibb cihazlarının funksionalığına təsir edə bilər. Tibb cihazlarının lazımi qaydada RF enerjisindən qorunduğunu müəyyən etmək və istənilən suallarla bağlı həkim və tibb cihazının istehsalçısına müraciət edin. Əgər tibbi avadanlıqlar yerləşən məkanda telefon aparatını söndürmək tövsiyyəsi barədə elan vurulubsa, bu tələbə əməl etmək lazımdır. Xəstəxanalar və tibb müəssisələri xarici RF enerjisinə həssas olan avadanlıqdan istifadə edə bilər.

### İmplantasiya edilmiş tibbi cihazlar

Tibbi cihazların istehsalçıları məsləhət görür ki, tibbi cihazla ehtimal müdaxiləni aradan qaldırmaq üçün nəbzölçən və ya implantasiya edilmiş kardiyo defibrilyasiya cihazı ilə simsiz cihaz arasında minimum 15,3 sm (6 düym) məsafə olmalıdır. Belə cihazları olan şəxslər bunları etməlidirlər:

- Mobil telefon qoşulu olanda onu tibbi qurğudan minimum 15,3 sm (6 düym) aralı saxlamalıdırlar.
- Cihaz döş cibində daşımamalıdır.
- Təsir ehtimalını azaltmaq üçün telefonu tibbi cihazın əksi istiqamətindəki qulağınıza qoyun.
- Müdaxilə olduğuna dair şübhə yaranarsa, dərhal simsiz cihazı söndürməlidirlər.
- Tibbi cihazlar barədə istehsalçıların yazdığı təlimatları oxumalı və əməl etməlidirlər.

Əgər mobil telefonun tibbi qurğu ilə istifadəsinə dair sualınız varsa həkiminizə müraciət edin.

### Eşitmə cihazları

Bəzi rəqəmli naqilsiz cihazlar qulaq aparatlarının işlərinə təsir edə bilər. Belə müdaxiləni hiss etdikdə xidmət provayderinizdən məsləhət alın.

## ■ Avtomobillər

RF siqnalları avtomobillərdə düzgün quraşdırılmamış və ya düzgün mühafizə edilməmiş elektron yanacaq injektor sistemi, blokirovkaya qarşı elektron əyləc sistemləri, elektron surət tənzimləyən sistemlər, hava kisəsi sistemləri kimi elektron sistemlərə təsir edə bilər. Daha ətraflı məlumat üçün sizin avtomobilin və ya ona əlavə edilmiş avadanlığın istehsalçısı və ya onun dileri ilə əlaqə saxlayın.

Yalnız professional personal cihaza texniki xidmət göstərə bilər və cihazı avtomobildə quraşdıra bilər. Qüsurlu quraşdırılma və ya xidmət təhlükəli ola bilər və bu cihaza tətbiq ediləcək hər hansı zəmanətin qüvvədən düşməsinə səbəb ola bilər. Avtomobilinizdə bütün simsiz cihaz avadanlığının düzgün quraşdırıldığını və işlədiyini mütəmadi olaraq yoxlayın. Tez alışan mayeləri, qazları və partlayıcı maddələri cihazın, onun hissələrinin və aksesuarlarının daşındığı bölmədə saxlamayın və daşımayın. Hava balışı ilə təchiz edilmiş avtomobillərlərlə bağlı unutmayın ki, hava kisələri böyük güclə şişirdilir. Hava balışının olduğu və ya açılacağı ərazidə əşyaları, o cümlədən quraşdırılmış və ya daşınan avadanlığı yerləşdirməyin. Avtomobilin daxilində simsiz avadanlığın düzgün quraşdırılmaması və hava kisəsinin şişməsi ciddi xəsarətlə nəticələnə bilər.

Təyyarədə uçuş zamanı cihazın istifadəsi qadağan edilir. Təyyarəyə minməmişdən əvvəl cihazı söndürün. Simsiz telecihazların istifadəsi təyyarənin idarə edilməsi üçün təhlükəli ola bilər, simsiz telefon şəbəkəsini qıra bilər və qeyri-qanuni ola bilər.

## ■ Potensial partlayıcı mühit

Potensial partlayıcı atmosferi olan ərazidə telefonu söndürün və bütün işarələrə və göstərişlərə riayət edin. Potensial partlayıcı atmosferi olan ərazi adətən avtomobilinizin mühərriyinin söndürülməsi tövsiyyə edilən ərazını əhatə edir. Belə ərazilərdə qığılcımlar partlamaya yaxud yanğına səbəb olur və bədən xəsarəti və ya hətta ölümlə nəticələnir. Telefonu xidmət stansiyalarında olan qaz nasosları kimi yanacaq stansiyalarında söndürün. Yanacaq depolarında, saxlama və paylama məntəqələrində, kimyəvi zavodlarda və ya partlayış əməliyyatları keçirilən ərazilərdə məhdudiyyətlərə riayət edin. Potensial partlayış atmosferi olan ərazilər həmişə olmasa da çox vaxt aşkar qeyd edilirlər. Bunlara qayıqlarda göyərtənin aşağısı, kimyəvi maddə daşıma və ya saxlama yerləri və havada toz, metal tozları və ya müxtəlif kimyəvi hissəciklər olan yerlər daxildir. Maye qazla işləyən avtomobil istehsalçılarına bu cihazın həmin avtomobillərin yaxınlığında istifadə eilib edilməyəcəyini soruşmalısınız.

## Təcili yardım zəngləri

**Zəruri məlumat:** Bu cihaz da daxil olmaqla simsiz telefonlar radio siqnalları, simsiz şəbəkələri, daxili əlaqə xəttləri şəbəkələrini və istifadəçi üçün proqramlaşdırılmış funksiyaları istifadə edərək işləyir. Əgər cihazınız internet vasitəsilə səs zənglərini dəstəkləyirsə (internet zəngləri), həm internet zənglərini və həm də mobil telefonu aktivləşdirin. Hər ikisi aktivləşdirildikdə cihaz həm mobil şəbəkə, həm də internet ilə təcili zəng etməyə çalışacaqdır. Hər şəraitdə bağlantıya təminat verilmir. Təcili tibbi yardım kimi əhəmiyyətli əlaqələr üçün Siz yalnız simsiz cihaza etibar etməməlisiniz.

**Təcili yardım zəngini etmək üçün:**

1. Cihaz iş rejimində olmadıqda onu yandırın. Müvafiq siqnal intensivliyini yoxlayın. Cihazınızdan asılı olaraq, aşağıdakıları tamamlamalı ola bilərsiniz:
   - Cihazınıza SİM kart daxil edin.
   - Cihazınızda aktivləşdirdiyiniz müəyyən zəng məhdudiyyətlərini götürün.
   - Qoşulu olmayan və ya uçuş rejimi profilini aktiv profillə dəyişdirin.
2. Ekranı təmizləmək və cihazı zənglər üçün hazır etmək üçün lazım olan qədər başa çatdırma düyməsini basın.
3. Olduğunuz yerin rəsmi təcili yardım nömrələrini daxil edin. Təcili yardım nömrələri ərazidən asılı olaraq fərqlənir.
4. Zəng düyməsini basın.

Təcili yardım zəngi edərkən tələb olunan məlumatı mümkün qədər dəqiq verin. Hadisə yerində sizin simsiz cihazınız yeganə kommunikasıya vasitəsi ola bilər. İcazə verilənədək zəngi bitirməyin.

## Sertifikatlaşdırma məlumatı (XAD)

**Bu mobil cihaz radiodalğaların təsiri haqda əsas təlimat tələblərinə cavab verir**

Sizin mobil telefon radioötürücüsü və qəbuledicisidir. Bu cihaz beynəlxalq qaydalar tərəfindən tövsiyyə edilmiş radio tezliyinə məruz qalma limitlərini aşmayan cihaz kimi hazırlanmış və istehsal edilmişdir. Bu Rəhbər prinsiplər ICNIRP müstəqil elmi təşkilat tərəfindən yaradılıb, belə ki, yaş həddi və sağlamlıq keyfiyyətləri nəzərə alınmadan, hər bir kəsin müdafiəsini təmin etmək üçün hazırlanan təhlükəsizlik qaydalarından ibarətdir.

Mobil cihazlar üçün təsir standartı olaraq Xüsusi Absorbsiya Dərəcəsi (XAD) kimi tanınan ölçü vahidi istifadə edilir. ICNIRP təşkilatının təlimatında göstərilmiş XAD həddi 2,0 vat/kilogramdır (Vt/kq) 10 qram toxuma ortalamaqla. XAD üçün testlər bütün sınaqdan keçirilmiş tezlik diapazonlarında cihaz ən yüksək təsdiq edilmiş güc səviyyəsində məlumatı ötürərkən standart iş vəziyyətində keçirilir. İstifadə edilən qurğunun XAD səviyyəsi maksimal dərəcədən aşağı ola bilər, çünki qurğunun ancaq şəbəkə ilə əlaqə yaratmaq üçün enerji verməsi tələb olunur. Bu rəqəm bir sıra faktorun təsiri ilə dəyişir; məsələn sizin şəbəkə baza stansiyasına nə qədər yaxın məsafədə olmağınızdan asılıdr. Bu cihazın qulaqda istifadəsi zamanı sınaqdan keçirilərkən ən yüksək XAD dərəcəsi 0,95 v/kg.

Qurğu hissələrinin və aksessuarlarının istifadəsi XAD dərəcəsinə təsir edə bilər. Milli hesabatçılıq tələblərindən və şəbəkə diapazonundan asılı olaraq XAD dərəcələri fərqlənə bilər. XAD barədə əlavə məlumat məhsul haqda məlumatın ardınca www.nokia.com saytında verilə bilər.

# İndeks

## A

aktiv gözləmə 17, 32
antenna 14
audio mesajlar 24

## B

batareya 13
Bluetooth 34, 52
brauzer 49

## C

cəld mesajlaşma 25

## D

diktofon 44
dil parametrləri 37
dinamik 20
divar kağızı 32

## E

EGPRS 35
ekran 16, 17
ekvalayzer 44

## Ə

əlaqə məlumatı 12
elektron poçt proqramı 24
əlfəcinlər 49
ənənəvi mətn yığılması 22

## F

fləş mesajları 23

## G

giriş kodları 10
gözləmə rejimi 16, 33
GPRS 35

## H

handsfree. Dinamik-a bax. 20

## X

XAD 58
xidmətlər 48

## İ

indikatorlar 17
İnternet 48
İnternet 48
İnternet 48
işarələr registri 21
işəsalma düyməsi 13, 15
işlər siyahısı 45
istehsalçı parametrləri 40

## J

jurnal 31

## K

kalkulyator 46
kamera
    effektləri 42
    filtri 42
    parametrləri 42
klaviatura kilidi 10
klaviatura kilidi 10
klaviatura kilidinin açılması 10
klaviaturanın kilidlənməsi 10
kodlar 10
konfiqurasiya 39
    parametrlərin xidməti 11
kontaktlar 29, 30
kukilər 49

## Q

qalereya 41
qeydlər 45, 46
qısa yollar 33
    sadələşdirilmiş mətn yığılması 21
    saniyəölçən 47

## M

mesaj parametrləri 26, 27, 28
mesajlar
    audio mesajlar 24
    fləş mesajları 23
    mesaj parametrləri 26
    səsli mesaj 26
    uzunluq indikatoru 22
məlumat
    ötürülməsi 53
məlumat kabeli 36
mətn 21
mətn yaz 21
miniekran 33
MMS. Multimedia mesajlarına baxın. 23
mövzular 32
multimedia mesajları 23
musiqi pleyeri 43
müştəri xidməti 12

## O

operator menyusu 40
oyunlar 47

## P

paket məlumatı 35
parametrlər
    divar kağızı 32
    gələn xidmət məktubların qutusu 50
    GPRS, EGPRS 35
    istehsalçı parametrlərinin bərpası 40
    kamera 42
    konfiqurasiyası 39
    qısa yollarım 33
    qoşulma qabiliyyəti 33
    mesajları 26
    məlumat ötürülməsi 35
    mövzular 32
    profillər 31
    telefon 37
    təhlükəsizlik 39
    tonlar 32
    USB məlumat kabeli 36
    zəng 37
PC Suite 52
PictBridge 36
profillər 31
proqram təminatının yeniləmələri 11
proqramlar
PTT 41

## S

səs
    diktofon 44
    komandaları 33
    mesajları 26
    nömrə yığımı 20
sinxronlaşdırma 35
siqnal gücü 16
şrift ölçüsü 32
sürətli yığım 19, 31

## T

tamamlama düyməsi 15
tamamlamaq
    zəngi 19
telefon
    konfiqurasiyası 39
    parametrləri 37
təcili yardım zəngləri 58
təhlükəsizlik
    modulu 50
    parametrləri 39
təhlükəsizlik haqqında məlumat 56
təqvim 45
tonlar 32

## V

vizitkalar 30

## Y

yandırın və söndürün 13
yükləmələr 12

## Z

zəng
    düyməsi 15
    gözləməsi 20
    jurnalı 31
    parametrləri 37
    seçimləri 20
zəng tonları 32
zənglər 19, 20